# Azərbaycanda LGBTİ hüquq pozuntularının Monitorinqi

2019-cu ilin ilk yarısına dair hesabat

ILGA EUROPE

Bu yarımillik hesabat İLGA Avropa tərəfindən maliyyəşdi-rilən Cənubi Qafqaz və Rusiyada LGBTİ fərdlərinə qarşı İnsan Hüquq Pozuntularına yönəlik Mübarizə layihəsi çərçivəsində hazırlanmışdır.

Hesabat Nəfəs LGBT Azərbaycan Alyansı
tərəfindən hazırlanmışdır.

Bütün hüquqlar qorunur © Nəfəs LGBT Azərbaycan Alyansı

# Mündəricat


1 İstifadə olunan terminlər

3 Giriş

- Ümumi Giriş (LGBTİ-ə münasibətdə Ayrı-seçkilik və Nifrət Cinayətləri)
- LGBTİ-ə münasibətdə Ayrı-seçkilik və Nifrət Cinayətlərinin qadağan olunması

6 Nifrət cinayətləri

- Yaşamaq və işgəncəyə, ləyaqəti alçaldan davranışa və ayrı-seçkiliyə məruz qalmamaq haqları
- Monitorinq qrupunun müsahibi olduğu qurbanlar
- Yerli Hüquqi Çərçivə

29 Son

- Yerli Hüquqi Çərçivə üçün
- Praktikalar

30 Əlavələr

# Istifadə olunan terminlər

**LGBTİ** – Lezbiyan, Gey, Biseksual, Transseksual, İnterseksual və digər şəxslər. Bu abreviatura ümumilikdə seksual oriyentasiyası və gender kimliyi ilə fərqlənən digər bütün şəxsləri ifadə etmək üçün istifadə olunur.

**Seksual oriyentasiya** – fərdin başqa şəxslərə qarşı duyduğu emosional, romantik hisslər və seksual marağı və bu maraqlara əsaslanaraq şəxsi və sosial kimliyini ehtiva edir. Heteroseksuallıq – fərdin əks cinsə qarşı duyduğu romantik hisslər və seksual maraq. Homoseksuallıq – fərdin öz cinsinə qarşı duyduğu romantik hisslər və ya eynicinslilər arasında yaşanan romantika, eşq və seksual maraq. Biseksuallıq – fərdin həm həmcinsinə, həm də digər cinsə qarşı duyduğu romantik hisslər, eşq və seksual maraq. Seksual oriyentasiya - "tənzimləyici diskurslar" çərçivəsində qurulmuş arzu subyektidir. Bunlar "ağlın çərçivələri" və ya "intizam rejimləri" adlandırılan seksuallıq imkanlarının sosial baxımdan nə qədər uyğun və ya "təbii" görünməyə icazə verildiyini əvvəlcədən müəyyənləşdirirlər.[1]

**Gender/Gender kimliyi** – performativ aktdır, olduğu iddia edilən kimliyi formalaşdırır. Gender həmişə əvvəlcədən mövcud olduğu deyilə biləcək bir mövzuya aid edilməməsinə baxmayaraq həmişə "edilən" bir aktdır. Gender fərdi istehsal edən davamlı bir performansdır və insanın nəzarətindən kənardır. Gender hakim cəmiyyət normalarına uyğun olduğu deyilən bir sıra aktlar vasitəsilə konstruksiya olunur.[2]

**Homofobiya** – Homoseksuallara qarşı nifrət, qorxu, qəzəb və ya dözümsüzlük. Daha geniş mənada - bütün LGBTİ icmasının nümayəndələrinə qarşı mənfi münasibətlərin hər hansı bir təzahürü (nifrət, düşmənçilik, təcavüz).

**Transfobiya** – Transgender fərdlərə qarşı gender kimliklərinə görə nifrət, qorxu, qəzəb və ya dözümsüzlük.

**Transgender** – özünü doğuş zamanı ona təyin olunan genderdən fərqli hiss edən, doğuş zamanı ona təyin olunan genderdən fərqli genderə bənzəmə istəyi duyan və ya özünü doğuş zamanı ona təyin olunan genderdən fərqli biriymiş kimi hiss edən şəxslər.

**İnterseks** – həm qadın, həm də kişi cinsiyyət xüsusiyyətlərinə sahib olan insanlar.

**Kaminq aut** – fərdin seksuallıq və/və ya genderinin könüllü olaraq açıqlanması prosesi.

**Autinq** – istək və razılıq olmadan bir şəxsin seksuallığı və/və ya gender kimliyi haqqında şəxsi məlumatların açıq şəkildə yayılması.

[1]Butler, Judith (1999) [1990]. Gender Trouble: Feminism and the Subversion of Identity. New York: Routledge. pp. 171–90. ISBN 978-84-493-2030-9.
[2]Butler, Judith (1999) [1990]. Gender trouble: feminism and the subversion of identity. New York: Routledge. p. 25. ISBN 9780415924993.

# LGBTİ hüquq pozuntularının qeydə alındığı ərazilər (şəhərlər üzrə)



# Ümumi Giriş

## LGBTİ-ə münasibətdə Ayrı-seçkilik və Nifrət Cinayətləri

## LBGTİ icmasına münasibətdə Ayrı-seçkliyin və Nifrət Cinayətlərinin qadağan olunması

> **Madde 1**
>
> Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar. Onlara ağıl və vicdan bəxş edilib və onlar bir-birinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar.

Hüququn müasir dövlətdən əsrlərdir tələb etdiyi əsas prinsiplərdən biri bərabərlik, azadlıq və ədalətin hamının ixtiyarına eynilə, kimsəyə ayrı-seçkilik qoyulmadan, kimsə xor görülmədən verməsidir. Hamının və hər kəsin fərq qoyulmadan fundamental və digər hüquqlardan istifadəsi, ölkədə hər fərqdə insanın bir yerdə yaşaya bilməsi əsas hədəflərdəndir. Bu baxımdan bərabərlik və onun təminatlarından olan ayrı-seçkiliyin qadağan edilməsi prinsipi beynəlxalq hüququn onurğa sütunlarındandır. İnsanlıq tarixinin ümumi konstitusiyası sayılan Birləşmiş Millətlər Təşkilatının Universal İnsan Hüquqları Bəyannaməsinin (1948) elə ilk iki maddəsi və 7-ci maddə də qanun qarşısında bərabərlik

> **Madde 2**
>
> Hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, silk mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır. Bundan əlavə, insanın mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüquqi və beynəlxalq statusuna, bu ərazinin müstəqil, asılı, özünü idarə etməyən və ya suverenliyi hər hansı digər şəkildə məhdudlasdıran ərazi olub-olmamasından asılı olmayaraq, heç bir fərq qoyulmamalıdır.

hüququ ilə  birlikdə bunu təsbit edir. Bəyannamənin 12-ci maddəsi şəxsi həyata müdaxiləni qadağan edir. Bunu Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt (maddə 2 və 26), İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Pakt (maddə.2), regional konvensiyalardan Avropa İnsan Hüquqları Konvensiyası (AİHK), 14-cü maddədə eynilə təsbit edib. Bu normalara görə heç kim irqi, dərisinin rəngi, cinsi, dil, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, sinfi mənsubiyyəti və digər vəziyyətlərinə görə ayrı-seçkiliyə məruz qala bilməz, qanun və məhkəmə qarşısında bərabərdir.

Düzdür ki, cins anlayışının yanında seksual oriyentasiya (təmayül,

> **Madde 7**
>
> Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bütün insanlar, hazırkı Bəyannaməni pozan istənilən ayrı-seçkilik aktından və belə bir ayrı-seçkiliyə hər cür təhrikdən müdafiə olunmaqda bərabər hüquqlara malikdirlər.

yönəlim) və gender kimliyi ayrıca yer almır.  Lakin istər BMT İnsan hüquqları qurumları öz Paktlarının şərhlərində (Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının qadağan olunması haqqında Konvensiya (CEDAW.1979) üzrə yaradılan Komitə[3]), çoxsaylı Xüsusi Məruzəçilər, istər Avropa Konvensiyasının rəsmi şərhini verən Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnda[4] artıq çoxdan seksual oriyentasiyanı və gender kimliyini qəti qadağan olunan,

> **Madde 12**
>
> Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla müdaxilə, evinin toxunulmazlığına, gizli məktublaşmalarına, şərəf və nüfuzuna özbaşınalıqla qəsd edilə bilməz. Hər bir insan bu cür müdaxilələrdən və ya belə qəsdlərdən qanunla müdafiə olunmaq hüququna malikdir.

insanlığazidd ayrı-seçkiliklər sırasında əsaslardan biri kimi tanıyıblar. Qəbul edilib ki, bu zəmində nifrət tarixən çoxsaylı, qanlı pozuntulara səbəb olub və indidən belə daha səbəb olmamalıdır. Bunun üçün də digər insanlıq ayıbı olan ayrı-seçkiliklər kimi eynilə qadağan olunmalıdır. Onlar təsbit ediblər ki, ayrı-seçkiliyin sadalanan əsaslarının siyahısı açıqdır, bu, (seksual oriyentasiya və gender kimliyi) ən azından “digər əsaslar”a düşür.[5]

Bununla əslində “seksual oriyentasiya və gender kimliyinə” hüquqda göstərilən “autsayder” münasibəti, bu kənardaqoyma “ayrı-seçkiliyi” bununla, bir növ, aradan qaldırılmış oldu. Beynəlxalq hüquqla diskriminasiyalara qarşı qəti qoruma altına alınmış meyarlar siyahısında – irq, dil, mənşə, milli/etnik mənsubiyyət, din, cins kimi əsaslar sırasında “seksual oriyentasiya və gender kimliyi”

[3] www.scfwca.gov.az/store/media/Qadınlara%20qarşı%20ayrı.docx

[4] Dudgeon v. B.Britaniya, 7525/76, 1981, Mouta v. Portuqaliya,33290/96, 1999 və digərləri;  Seksual orientasiya məsələləri, AİHM şərhi: https://www.echr.coe.int/Documents/FS_Sexual_orientation_ENG.pdf

[5] BM İHK, Ümumi Şərh 31: Paktdan irəli gələn Ümumi Hüquqi Öhdəliklərin Təbiəti, 29.4.04, UN Doc CCPR/C/21/Rev.1/Add.13, para 6-8; Toonen v Avstraliya, No. 488/92, 30.3.94, CCPR/C/50/D/488/1992, § 8.7; Young v. Avstraliya, No. 941/00, 6.8.03, CCPR/C/78/D/941/2000; X v. Kolumbiya,No.1361/05, 14.5.07, CCPR/C/89/D/1361/2005; BMT İSMK, Üm. Şərh No. 20 (İSMH-də ayrı-seçkilik üzrə), 2009, § 32

öz bərabər və layiqli yerini almış oldu. Əslində bu siyahıdakı digər meyarlar da eyni uzun, ağrılı və çətin tanınma yolu keçiblər. Bu, ümumiyyətlə, bütün növ, xüsusən də cinsi zəmində stiqmanın, diskriminasiyanın "sosi-psixoloji kökünün çox dərində olması" ilə bağlıdır.[6] Eləcə də, buna səbəb aradan qaldırmalı olan qərarqəbuledicilərin, hakimiyyət daşıyıcılarının özlərinin də həmin xorgörücü reqressiv düşüncənin daşıyıcısı olmağıdır. Hazırki idarəçilərə və cəmiyyətə etdiklərinin tarixi perspektivdə necə göründüyünü daha yaxşı göstərmək üçün bariz bir misalı verməyi vacib bilirik. Britaniya 1967-ci ildə homoseksuallığı dekriminallaşdırdı, əsrlərlə davam etmiş sodomizasiyasını ləğv etdi. Di gəl ki, qanunvericilik onun cinayət sayılmağına son versə də, orqanlar ilişməyə "ilgək tapmaq" üçün heç də korluq və əziyyət çəkmədilər. Dövlətdən gözlənilən və beynəlxalq hüquqla da tələb olunan **good will - yəni xoşniyyətli, xoşgüman** hərəkət əvəzinə, LGBTİ fərdlərini məyus edəcək bədgüman bir vəziyyət yaratdılar. Onlar "ictimai əxlaq əleyhinə cinayətlər" bölümündə ağır əxlaqsızlıq (gross indecency) əməli altında təqibdən əl çəkmədilər. Adicə homoseksuallığın zahirən (geyimdə, sözlü) büruzə verilməsi özü "əxlaqsız təklif, çağırış" kimi (procuring/soliciting) yozulub şəxsləri "fühuş təklif etmə"yə görə cəzalandıra bilirdilər. Başqa sözlə, özlüyündə mental düşüncə üçün ətrafa "əxlaqsızlıq saçan" bir fenomen kimi qalmaqda idi. Bu yozduqları əməlin məhz belə sayılması üçün qanun tələb edirdi ki, cəzalanması üçün publik (ictimai) yerdə olmalıdır. Bundan ötrü otel otaqlarının hər bir adi otaq kimi məhrəmlik (privacy) daşıdığını, şəxslərin bunu almaq üçün şəxsi pulunu ödədiyini saya salmayıb, "ümumiyyətlə, otellər publik yerdir" deyib, bu bəhanəylə də bildiklərini yürüdürdülər. Göründüyü kimi, stiqma gözü tutanda, bəhanə tapmaqçün ən məntiqsiz şeylər də "keçərli" olur. Yaxud, uşaq övladlığa götürmə məsələsinin dərki hələ bundan sonra Britaniyada bir qərinə daha vaxt aldı. Ötən əsrdə qəbul edilmədi, keçdi, yeni minillikdə oldu (2002). Düzdür, bir az da uşaqlar həssas məsələ olduğu üçün hərtərəfli ölçüb-biçmək başadüşülən v və hamının marağında idi. Amma hər ölçü, təhlil stiqmanın əleyhinə, homoseksualların xeyrinə dəlilləri hər ötən il artırırdısa da, çifayda, - bu lüzumsuz ehtiyatkarlıq ortadan götürülmürdü. QİÇS ajiotajı da burda mühüm rol oynadı. (Çoxsaylı səbəbləri içərisində cinsi yolla yayılma da vardı, bunların içindən də bu, daha çox LGBTİ fərdlərə yükləndi). Münasibət dəyişdikcə isə, mümkün qədər çətin prosedurlar, bitib-tükənməz bilməyən eksessiv şərtlər, qaydalar qalmaqda davam etdi və indi də edir. Onların ən xəfifinin belə vurduğu ziyanların davamlı, kumulyativ (toplanan) effekti, görünən və görünməyən ziyanları, vurduğu iqtisadi ziyanlara qədər elmi təhlilləri aparılıb (bax: interseksionalist effektlər)[7]. Bu təhlillərə görə, diskriminasiya həm də sadəcə yönəldiyi şəxslərə yox, bütünlüklə cəmiyyətə hərtərəfli böyük ziyankarlıq yetirir.

Hazırda Azərbaycanda hələ də tətbiq edilən (və bir qismi bu hesabatda tənqid və təhlil edilən) bir çox praktikalar var ki, oxşar mühafizəkar yanaşmanın birbaşa və ya dolayı nəticəsi kimi çıxış edir. Dövlətin çoxluğun marağı qədər azlığı da müdafiə etməsi demokratik cəmiyyətin **sine qua non (olmazsa olmaz)** şərtidir. Üstəlik də artıq seksual oriyentasiya və gender kimliyi baxımından insana ayır-seçkilik, ögey-doğmalıq, əgər-əksiklik nümayiş etdirmək bərabərhüquqlu şəkildə qadağan olunmuş ayrı-seçkiliklər siyahısına daxildir. Bu diskriminasiyanı real, effektiv şəkildə ləğv etməkçün bütün növ lazımi tədbirləri təxirəsalmadan görmək dövlətlərin üzərinə öhdəlik kimi qoyulub. Bunlara görə də dövlətlər daha deyə bilməz ki, cəmiyyət, onun mənəvi dəyərləri və s. bunun əksini tələb edir deyə bu məsələni baxılmadan, həll edilmədən gələcək nəsillərin öhdəsinə buraxır və s. Bu irqi ayrı-seçkiliyi saymadan, geridəqalmış yanaşmanın vüsət aldığını və problemlər, po-

[6] Journal of Gay & Lesbian Psychotherapy, Vol. 1, 1991 - Issue 4, STIGMA AND HOMOSEXUALITY. From Anthropology: Homosexuality, Stigma, and Biocultural Evolution, Gary J. Mihalik MD, p. 15-29, online: 23.10.08, https://doi.org/10.1300/J236v01n04_02

[7] Malika Gumpangkum, WORLD BANK: ECONOMIC CONSEQUENCES OF DISCRIMINATION , The World Bank, https://borgenproject.org/world-bank-economic-consequences-of-discrimination/

UNDP in producing "Marginalised Minorities in Development Programming: A UNDP Resource Guide and Toolkit, https://www.ohchr.org/Documents/Issues/Minorities/UNDPMarginalisedMinorities.pdf

zuntular yaratdığını illərlə göz görə-görə dövlət, sadə dildə desək, yaxasını kənara çəkib, daha "bu, şəxslərin, cəmiyyətin subyektiv fikirləridir, çoxluq belə düşünür, ona qarşı gedə bilmərəm" deyə bilməz. Yaxud dünya elmi-hüquqi mütərəqqi trendini yox, elmi əsası olmayan, tarixi-mənəvi mülahizələrə qarışmamaqla tarixi inkişaf baxımından, sosial trendi də nəzərə alsaq o qədər də uzaqda olmayan gələcəkdə onlar da qaçılmaz olaraq geridəqalmış, ənənəçilikdən irəli gələn mexaniki qərəzli və good will (xoşniyyət) davranışla üst-üstə düşməyən neqativ və ya geridə qalmış praktikalar kimi qiymətini alıb, yerini ancaq dərsliklərdə və muzeylərdə alasıdır.

Azərbaycan dövləti sekulyar xalq respublikasıdır və Konstitusiyasında beynəlxalq sənədlərdəki ilə eyni məzmunda humanosentrik baxış və ümumi bərabərlik barədə norma təsbit edilib: İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi kimi 24-cü maddəyə görə, İnsan ləyaqəti qorunur və ona hörmət edilir. Maddə 25. Bərabərlik hüququ: Hamı qanun və məhkəmə qarşısında bərabərdir... III. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən ...siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Konstitusiyanın 12-ci maddəsinə əsasən, insan hüquq və azadlıqları beynəlxalq hüquqa uyğun tətbiq edilir və ziddiyyət zamanı beynəlxalq hüquq əsas götürülür.[8]

Azərbaycan 1992-ci ildən İSMH Paktını, 2002-ci ildən Əsas İnsan Hüquqları və Azadlıqlarının Müdafiəsi haqqında Konvensiyanı ratifikasiya edib, Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasını tanıyıb. Üçüncü cins/gender anlayışı bir çox dövlətdə olduğu kimi Azərbaycanda da dövrün dil və düşüncə səbətinə görə ənənəvi olaraq konstitusiyada yer almayıb. Lakin cinsi ayrı-seçkilik birbaşa qadağan edilib. "Cins" sözü öz imkanları baxımdan "seksual oriyentasiya və gender kimliyi" anlayışını əhatə edə bilən ifadə kimi şərh edilə bilər. Lakin ənənəvi olaraq Konstitusiyanın mətnindəki kişi və qadın anlayışlarına müncər edilir (bağlı edilir, onlarla məhdudlaşdırılır) və belə genişləndirici şərhi yoxdur. Ona görə də birbaşa ayrıca ifadə ilə ("seksual oriyentasiya və gender kimliyi" ifadəsilə) diskriminasiyadan qoruyan ifadəyə ehtiyac var. Bunsuz da beynəlxalq hüquq artıq bu məsələni həll etdiyi üçün oriyentasiya və kimlik əsası ilə də Azərbaycanda heç kimə ayrı-seçkilik edilə bilməz.

Bu bərabərlik hüququ cinayət cəzası ilə qorunur:

AR Cinayət Məcəlləsi.

Maddə 154: Bərabərlik hüququnu pozma

154.1. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq şəxsin hüquq və qanuni mənafelərinə zərər vurmaqla şəxsin bərabərlik hüququnu pozma— yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

154.2. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə — beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Təəssüf ki, qanunda sadalanan bu əlamətlərlə ayrı-seçkiliklər bir çox cinayətlərdə ağırlaşdırıcı hal sayılsa da (CM.61.1.6, CM 120.2.12), etnik, irqi, dini ədavətə çağırış ayrıca maddəylə ağır cəzalanan əməl olsa da (CM.283), bir çox ölkələr, o cümlədən qonşumuz Gürcüstan 2012-ci ildən öz cinayət qanununa seksual oriyentasiyanı müstəqil ayrı-seçkilik əsası kimi bu siyahıya əlavə etsə də (praktikada tətbiqi hələ olmasa da), 2014-cü ildə "Ayrı-seçkiliyin bütün formalarının ləğvi haqda xüsusi qanunda "seksual oriyentasiya,

[8]Azərbaycan Respublikası Konstitusiyası, maddə 12 (həmçinin bax: 148,151), 1995 (2018 dəyişikliklərilə)

gender kimliyi və özünüifadə" anlayışlarını birbaşa öz qanununa salsa da, Azərbaycanda nə ayırca **"nifrət cinayəti"** çətir anlayışı işlənir, nə belə bir ayrıca maddə var. Nə də ağırlaşdırıcı hal kimi yer almır. Ona görə heç statistikası da aparılmır. Bircə homo/trans-seksual şəxslərə aidiyyatı olmayan, onları selektiv şəkildə bir kənara qoyan "Gender bərabərliyinin təminatı haqda qanun"da "seksual qısnama"ya verilən anlayışda işlədilmiş **"seksual yönüm"** ifadəsindən başqa bir irəliləyiş əldə edilməyib. Statistika uçotunda da bu maddənin hesabına bu ifadə yer alır.[9] DİN-in 2019-cu ilin əvvəlində təsdiqlənmiş, cinayətlərin mərkəzləşdirilmiş uçotunda isə LGBTİ fərdlərindən yalnız homoseksuallar və onlara qarşı kateqoriya yer alıb.[10] Elə həmin qanunda cinsi ayrı-seçkiliyin özünə də çox ümumi tərif verilib, qanun özü də bütövlükdə LGBTİ fərdlərini kənarda qoyub. Binarlığı qanunun bilavasitə adında yazmağa belə ehtiyac görüb ki, yalnız qadın və kişilərə aiddir. 2000-ci ildən qüvvədə olan Cinayət Məcəlləsi sayəsində eynicinslilərin cinsi əlaqəsi daha kriminal əməl olmasa da, cinsi əlaqədə olma yaşı hetero və ya homoseksual şəxslər üçün fərq qoyulmadan 16 yaş olsa da, eynicinsli nikahların qanuni tanınması üfüqdə belə görünmür deyə bilərik.

Maddə 8

**Şəxsi və ailə həyatına hörmət hüququ**

1. Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.

2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün sağlamlığı, yaxud mənəviyyatı mühafizə etmək üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, dövlət hakimiyyət orqanları tərəfindən bu hüququn həyata keçirilməsinə mane olmağa yol verilmir.

## Nifrət Cinayətləri məsələləri (Yaşamaq və işgəncəyə, ləyaqəti alçaldan davranışa və ayrı-seçkiliyə məruz qalmamaq haqları)

### Beynəlxalq standartlar və mexanizmlər.

Nifrət cinayətlərinə verilən beynəlxalq anlayışa baxdıqda, o cümlədən ATƏT-in Bələdçisində də oxşar məzmun görünür: bu elə cinayətdir ki, onların törədilməsinə səbəb zərərçəkənin bu və ya digər qrupa əsasən irq, din, seksual oriyentasiya və ya gender kimliyi, milliyyət, mənşə, əlillik və ya digər əsaslarla həqiqətən və ya ehtimalən (prezumpsiya olaraq) mənsub olmasıdır. Bu kimi mənsubluq səbəbindən, sırf bu əsaslar barədə ön mühakimə meydana gətirə bilən səbəblərdən törədilir.[11] Söz azadlığı ilə nifrət nitqinin hədləri baxımından isə demokratik bir çox ölkə kimi Azərbaycan da ifadə azadlığının legitimliyini nifrət çağırışları üçün tanımır, qadağan edib. Dövlətlər ifadə azadlığını təşviq etsə də, insanları qorumağa da məsuldurlar. Nifrət çağırışlarını qadağan etməyin siyasi və hüquqi əsası da demokratik cəmiyyətdə zəruri olan - müdafiəsiz insanlara təminat verməkdir.[12]

Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) bütünlüklə seksual həyatın aspektlərini şəxsi həyatı qoruyan 8-ci maddə ilə qoruyur, ayrı-seçkilik motivində isə 14-cü maddə (ayrı-seçkilik) ilə birlikdə araşdırır.

Adıçəkilən və digər əlaqədar beynəlxalq normaların rəsmi şərhlərini verən İnter-Amerika Məhkəməsi, AİHM, BMT İnsan Hüquqları Komissarlığı, bir sözlə, bütün mütərəqqi beynəlxalq instansiyalar öz presedent hüququnda "şəxsi həyat" anlayışı barəsində qəti tanıyıblar ki, şəxsi həyat onsuz da insanın başqaları üçün müdaxil

[9] AR STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN KOLLEGİYASI, Qərar: 180108500004 , 20.2.18

[10] "Mərkəzləşdirilmiş kriminal və axtarış uçotlarının təşkili və aparılması qaydaları barədə Təlimat"ın təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN KOLLEGİYASI, QƏRAR, Q5-001-19, 8.1.2019

[11] Nifrət Nitqi Praktik Bələdçi. S.42, Combating Hate Crimes in the OSCE Region, An Overview of Statistics, Legislation and National Initiatives, OSCE – ODIHR, 2005, s.12; OSCE/ODİHR Prosecuting hate crimes: https://www.osce.org/odihr/prosecutorsguide?download=true

[12] Jeremy Waldron, The Harm in Hate Speech, Cambridge, MA: Harvard University Press, 2012, s.100-104

olma (access) haqqı əsaslı şəkildə məhdud olan, sərhədləri ilk növbədə insanın fiziki-psixoloji varlığının sərhədləri ilə cizgilənən, xaraktercə (hüquqən və təbiətən/fitrətən) də xüsusi qorunan bir "sahə"dir. Bu sahə üzərində fərdin müstəsna muxtariyyəti olan bir daxili aləmidir. Cins, cinsi həyat məsələsi də bir fərdin bu daxili dünyasında ən internal (ən daxili, ən intim, ən məhrəm) həyat aspektini təşkil edən bir məfhumlardandır. Bu, elə bir çevrədir ki, ora başqalarının kənardan girişi/müdaxiləsi ciddi şəkildə məhduddur. Lakin bu çevrə özü sadəcə özünün, fərdin fiziki varlığının sərhədləri ilə məhdudlaşmır, orda bitmir və dayanmır. Ona görə də bura təkcə fiziki-psixoloji bütövlük, toxunulmazlıq daxil deyil. İnsanın bu çevrənin "həndəvərində", yaxın və uzaq ətrafında çoxsaylı insanlarla, sosial institutlarla müxtəlif situasiyalarda daxil olduğu çeşidli münasibətləri var. Onların fərdi həyatla birbaşa, üzvi, substantiv əlaqəsi olanları da hüquqla bu təminatlar altına düşür. Bu, onunla əlaqədardır ki, insan qapalı subyekt, yalnız bioloji varlıq deyil, sosial varlıq, ətraf aləmlə açıq mübadilədə olan bir bio-sosial vahiddir. Beynəlxalq hüquq tanıyıb ki, insanı yalnız həmin ilkin çevrəsi ilə məhdudlaşmaq ağlasığmaz olardı. Həmçinin ona şəxsi həyatında müstəsna immunitet tanınmazsa, bu fərdin özünü realizəsinə ciddi zərbə olardı. Demokratik cəmiyyətin əsas sütunlarından olan vətəndaş iştirakçılıqlı cəmiyyətinin əsas atomik vahidi – **müstəqil** fərdi müdafiəsiz, müdaxiləyə açıq vəziyyətdə qoymuş olar, dövlətlərin müxtəlif bəhanələrlə, ideoloji, iqtisadi və s. əsaslarla insanın şəxsi və ailə həyatına müdaxiləsinin "əl-ayağını" aça, bununla da demokratik cəmiyyətdə plüralizm, tolerantlıq, özünüifadə azadlığı, dinc birgə yaşayış kimi prinsiplər sarsılmış olardı. İnsanın fərdi və ictimai inkişafının da rəhnində (bir sıra başqa təminatlarla yanaşı) ilk növbədə bu immunitet, fərdin azadlığının qorunması yatır. İnsanın fərdi həyatının daxili elementləri necə zəngindirsə, onun daxil olduğu və fərdi həyatla birbaşa bağlı olan sosial əlaqə və təmaslarının çeşidi də o qədər çoxdur və dəyişkəndir ki, onun bu sosial varlığı, mövcudluğu özü də ayrıca böyük bir sferanı təşkil edir. Bununla da bu sfera həmin bu daxili çevrənin ətrafına (onun birbaşa qonşuluğunu təşkil edən) daha böyük bir çevrə - "yaxın çevrə" cizmiş olur. Bura ilk növbədə ailə, ev, fərdi yaşayış, sosial əlaqələr, şəxsi münasibətlər daxildir. Ona görə də şəxsi həyatla yanaşı, ailə həyatı, yazışma və ev məhrəmiyyəti (privacy) hüquq normalarında əsas kateqoriyalar kimi xüsusi ayırd edilib. Trans/homoseksual şəxslərin hüquqlarının müzakirəsində "ailə", "ailə əlaqələri" kimi anlayışlara geniş və yeni məzmun mənaları verilib. Həmçinin onların şəxsi həyat hüququ ilə ailə həyatı hüquqlarının hər kəsdə olduğu kimi iki müstəqil hüquq olması da şəxsin özü və bu cür yaxın çevrəsilə birbaşa əlaqəli seçimləri, bu seçimlərdən birbaşa irəli gələn hallar, şəxsin özü, mənşəyi barədə identifikasiyası, identifikasiyasına təsir edən və ya onu təşkil edən sosial aidlikləri (affiliaton), qan, dil, cins, din, və s. meyarlar üzrə özünü bu və ya digər qrupa, icmaya, xalqa və sairəyə aid etmək haqqı, sosial iştirakçılığa dair bir sıra bu kimi çoxlu sayda hüquqlar bura daxildir. Burada insanın həyatına qərar verdiyi kimi, ölümünə dair məsələləri də, ölümündən sonra hörmət edilməsi hüququna qədər geniş hüquq çevrəsi var. Həmçinin insanın özü, daxili dünyası, həyat tərzi və ən yaxın ətrafına dair ciddi sosial bağları olan məsələləri təbiətən və/və ya sosial olaraq özünə dair olanı istədiyi kimi yaşamaq, onu göstəmək və ya göstərməmək, açıqlamaq və ya açıqlamamaq, bunlardan hər hansını edəndə cəza və s. qorxular altında qalıb çəkinməmək, müdaxilə edilməmək, qəbul edilmək və təqib edilməmək kimi bir insana məxsus ola biləcək ən fundamental hüquqların burda qorunduğunu görə bilirik. Ona görə də insanın özünüifadəsinin və kimliyinin əsas konturlarını özü çizmək barədə müstəsna haqqı, həmin özünüifadə və kimliklə cəmiyyətə çıxmaq, çıxanda (özünü cəmiyyətə təqdim və cəmiyyətdə ifadə edəndə), insanlarla və dövlətlə təmasında ciddi hüquqi immuniteti, qorunması var. Gender kimliyi və seksual yönəlim/oriyentasiya da bu cür ciddi qorunan

şəxsi/fərdi məsələ, özü də olduqca şəxsi/fərdi məsələdir.

Sadəcə bu hüquqlar mütləq hüquqlardan deyillər. Yəni müdaxiləyə məruz qala bilər. Lakin elə məhz həmin hüquqlardan daha çox muğayat olmaq, onların pozitiv müdaxilə adı altında necə gəldi (arbitrar) müdaxilələrə məruz qalmamasını təmin etmək üçün bu müda xilə sərbəstliyi özü dəqiq hüquqi sərhədlərlə, hüquqi hədlərlə "çəpərlənib". Sadəcə ictimaiyyətin dəyişən dinamik bölümünə aid olduğu üçün onlarda hazırda da çoxlu dəyişikliklər müşahidə olunur. Lakin bu, onların təminatlarını da onlarla birlikdə inkişaf etdirir. Ailə anlayışı heteronormativliyin monopoliyasından alınaraq, birgə yaşayışın bütün növlərinə eyni hüquq tanınmaqda davam edir. Patoloji-anatomik yanaşmanı psixoloji yanaşma əvəzləməkdədir: xəstəlik yox, insanın bir hali-vəziyyyəti olmasının qəbulu davam edir. Bunun elmi və hüquqi əsasları işlənir.

Elə Konvensiyaların, qanunların da bu zaman ən böyük qayğısı ortaya çıxır ki, dövləti və üçüncü şəxsləri lüzumsuz müdaxilələrdən çəkindirsin. Bu zaman fərdi belə eksessiv müdaxilələrdən maksimum effektiv şəkildə qoruya bilsin. Sosial münasibətlərdə ifadə edildiyindən, qarşılıqlı olaraq başqa insanların hüquqlarının sərhədləri ilə tez-tez kəsişdiyindən, həmçinin bir çoxunun təmin edilməsində dövlət iştirak etdiyindən bu başadüşülən ülvi məqsədlərlə - ictimai qayda, ümumi rifah, təhlükəsizlik, cinayət təqibi, ədalət mühakiməsinin maraqları naminə, üçüncü şəxslərin hüquq və azadlıqlarını qorumaq naminə - bu kimi legitim məqsədlərlə bu hüquq məhdudlaşdırıla bilər.

Bütün bunları xüsusi vurğulamağın səbəbi növbəti hissələrdə bu sferanın immunitetlərinin necə genişləndiyini, şəxsi və ailə həyatı anlayışının, cins anlayışının "sərhədlərinin" və "daxili elementlərinin", "realizə çeşidlərinin" necə proqressiv, dinamik inkişaf yolu keçdiyini göstərmək və onları izləməyin qaçılmaz olduğunu vurğulamaqdır. Bu, dövlət orqanları işçilərinin, praktiklərin, aktivistlərin izləyə biləcəyi dəsti-xətti müəyyən etməyə də kömək olardı.

Bu normalardan əlavə, məhdudiyyətlər həddini aşdıqda əlavə təminatlar işlədilir. Əzabın, nəticələrin bəlli bir ağırlığından, şiddətindən söhbət gedəndə, həddən artıq olanda, Avropa Məhkəməsi Avropa Konvensiyasının 3-cü (işgəncə, qəddar rəftar və ləyaqəti alçaldan davranışın qadağan olunması) maddəsinə müraciət edir.[13] Bu maddə absolyut (mütləq) hüquqdur, yəni heç bir halda, heç bir şərtlər daxilində yolverilən deyil, heç bir əsasla haqq qazandırıla bilinməz sayılır. Bunun üçün məhkəmə konkret hədd qoymayıb, praktikada müəyyən əlamətləri meyar kimi müəyyən edib (bax: AİHM, Kudla v. Polşa, Svinarenko v Rusiya işi). Ağrı və məhrumiyyətlərin müəyyən bir həddi/dərəcəsi var, həmin həddən artıq olanda Məhkəmə nümayiş etdirib ki, belə hallarda artıq insana sadəcə sıravi bir müdaxilə, azxətərli ayrı-seçkilik edildiyini qəbul edə bilməz. Şəxs(lər) in şərəf və ləyaqəti, psixi və fiziki toxunulmazlığı elə həddə müdaxiləyə məruz qalıb ki, bu, ən azından ləyaqəti alçaldan davranışdır. Söhbət ondan gedir ki, işgəncə və digər qeyri-insani rəftar sayılan hərəkətlərin ağırdan yüngülə doğru **üç kateqoriyalı (işgəncə, qədar rəftar və insan ləyaqətini alçaldan davranış) təsnifatı var ki**, bəzən LGBTİ fərdlərinə dözülməz münasibət, nifrət məhz bu həddə ağır nəticələrə səbəb ola bilir. Bunun üçün meyar-əlamətlər qismində o çıxış edir ki, şəxs bu zaman özünü köməksiz, aciz, qorxmuş, həyəcanlı, stress içində hiss etməyə məcbur olur, fiziki-mənəvi sıxıntı keçirir, bunların insana yaşadılması isə özlüyündə insan ləyaqətinə hörmətlə bir araya sığmır, yolverilməzdir. Bu qiymətləndirmə zamanı məhrumiyyətlərin, yetirilən fiziki-psixoloji ziyanların həcmi, zorakılığın şiddəti, onların sistemliliyi, ardıcıllığı, ağırlığı, intensivliyi, davamlılığı, həmçinin pozuntu törədənlə zərərçəkmişin fiziki göstəriciləri, yaş, fərd sayı, şərait, səhhət, alətlər, vasitələr, və s. nəzərə alınır. Ümumiyyətlə isə, ayrı-seçkiliyin özü-özlüyündə qaçılmaz psixoloji travması var, özlüyündə əzabvericidir. Başqa adamların, xüsusən tanımadığı insanların qarışısında şəxsin alçaldıcı fərqləndirilməsi, gender kimliyinin özünü iradəsi əleyhinə

[13] **Identoba və başqaları v. Gürcüstan işi**, (LGBT paradına qarşı kəskin nifrət bəsləyən, onlardan sayca şox kütlə müdaxilə edib dağıtmış, söyüb döymüşdülər, Məhkəmə qızışmış, sayca çox və nifrətdolu kütlə ilə əhatə olunub psixi-fiziki zora məruz qalanda insanın qorxu, acizlik, köməksizlik, alçalma, stress, həyəcan, qorxu kimi hissələri keçirməyə məhkum olduğunu, bunun isə insan ləyaqəti ilə bir araya sığmayan vəziyyət yaratdığını, ona görə də 3-cü maddənin pozuntusunu yaratdığını bildirib. Gürcü dövlətinin buna yol verməmək və baş verəndə önləmək üçün zəruri tədbirlər görməyib, istintaqı da Cinayət Məcəlləsində bu barədə ağırlaşdırıcı maddə olsa da, onun əsasında aparmamaqda əlavə pozuntuya yol verib. Bunları məhkəmə 3 və 14-cü maddənin birlikdə pozuntusu kimi, yəni ayrı-seçkilikdən doğan, ayrı-seçkilik qoyarcasına, ayrı-seçkiliki qoyduğu üçün və bu ayrı-seçkiliyi real tətbiq edərək törədilmiş fərdin insan ləyaqətini alçaltma əməli/pozuntusu sayıb.

(özü də bu azmış kimi, bir də ayıblarcasına, bir də ayıblarcasına, sanki bir qəbahət faş edilircəsinə) açıqlanması, ələ salınması, sosial çevrədən uzaqlaşdırılması, xor görülməsi, əyin-başının təftişi, sataşma, təhqir, ... - başqa bu kimi hərəkətlər ayrı-ayrılıqda Konvensiyanın 3-cü maddəsi mənasında ləyaqəti alçaldan ağırlıqda əməl sayılacaq qədər ağır olmaya bilir.

Amma bunlar AİHK 8-ci maddəsi üçün kifayət qədər pozuntu sayılır. Fəqət, bəzən digər ağır əməlləri müşayət etdikdə, ya da bir-birinin üstünə, yaxud ardı-ardına bəlli bir şiddətlə edildikdə **kumulyativ effekt** üçün həmişə nəzərə alınır. Yəni, ayrılıqda olmasa da, birlikdə götürüləndə hər biri ümumi ağırlığı təşkil etmiş olur; yaxud da aşağı ağırlıqda pozuntunu ağırlaşdırıb ləyaqəti alçaldıcı həddə çatdıran amillərin həlledici element(lər)i və ya bu amillərin məcmu şəkildə toplusu ola bilirlər. Pozuntu kobudlaşdıqca, ağırlaşdıqca məhkəmə də daha ağır maddəylə qiymətləndirməyə keçir. Proqressiv praktikaya əsasən, məhkəmə bu cür ayrı-seçkiliyin aşkar olduğu işlərdə əzab və iztirabların ən minimum həddini tanımağa meyllidir. Başqa sözlə, daha çox elementin olmasını öz qarşısına xüsusi meyar kimi, yaxud xüsusi bir şkala-doldurucu kvota kimi qoymur. Digər tərəfdən isə, sübutetmədə dövlətdən ciddi əsaslandırma tələb edir ki, bildirsin ki, sistemli bir ayrı-seçkilik varsa, bu hallarla mübarizə üçün gördüyü işləri nədən ibarət olub, konkret işdə məsələnin qarşısının alınması üçün hansı tədbirlər görülüb. Bu mümkün olmadıqda effektiv istintaq aparıb, ya aparmayıb, təqsirləndirilənlər cəzalanıb, yoxsa cəzasız qalıb. Müdaxilə etdikdə də izah etsin ki, bu müdaxilə üçün ciddi əsas nə olub, qoyulan məqsəd qanuni və demokratik cəmiyyətdə zəruri idimi, gördüyü tədbirlər də həmin məqsədə adekvat idimi, başqa (müdaxiləsiz və ya minimal zərərli optimal) yolla həmin məqsədə nail olmaq mümkün idimi, mümkün idisə, onun tətbiq edilməməsinə əsaslı/üzrlü səbəb nə ola bilmişdi, həmin məqsədə məhz və yalnız tətbiq edilən üsullamı ancaq nail oluna bilinəsiydimi, nail olunmuş nəticə ilə güdülən məqsəd tamamlanmışmı, məqsəddən kənara çıxılmışmı, məqsəd aşılmışdırmı, aşılmaması üçün zəruri tədbirlər görülmüşdümü və s.

Dövlət bu hüquqlara mane ola bilməz, müstəsna hallarda müdaxilə edə bilər. Müdaxilə üçün bu müstəsna legitim əsaslar isə yalnız Konvensiyanın 8-ci maddəsinin 2-ci bəndindəkilərdir: məqsəd baxımdan (1) milli təhlükəsizlik və ictimai asayiş, (2) ölkənin iqtisadi rifah maraqları naminə, (2) iğtişaşın və ya cinayətin qarşısını almaq üçün (3) sağlamlığı, yaxud mənəviyyatı mühafizə etmək üçün və ya (4) digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün ola bilər. Üsul baxımdan isə bu məqsədlərdən hər hansı biriylə edilən müdaxilə halları da mütləqvə mütləq qanunla nəzərdə tutulmuş olmalı və demokratik cəmiyyətdə zəruri olmalıdır.

Həmçinin seksual oriyentasiya və gender kimliyi kimi məsələlər mahiyyətinə görə insanın özünüifadəsi, dünyagörüşünün bir hissəsidir. Fərdin özünə, bədəninə gender nöqteyi-nəzərindən baxışı; özünə gender kontekstində həmin münasibətinə, onun bu daxili dünyasına ətrafın qarışmaması; bunu insanlardan gözləmək və tələb etmək haqqı; ətrafın da fərdin özünə arzuladığına başqalarının hörmətini gözlədiyini ifadə etmək, onu dəstəkləmək, müdafiə etmək haqqı; şəxsin özünə dair seksual kontekstdə ifadə və fikrinə görə nə onun özünün, nə dəstəkçilərinin təqib edilməməsi haqqı; belə təqibin qadağan edilməsini, hərtərəfli araşdırılması və təqsirkarlarının cəzalanmasını tələb etmək və buna nail olmaq haqqı [...] və digər bu kimi haqlarla gender kimliyi sıx bağlıdır. O, stiqma və stereotiplərin diqtə etdiyinin tam əksinə olaraq heç də (və heç bir halda) qapalı, gizli, görünməz, duyulmaz, ifadəedilməz, tanınmaz, yaxud gizlədiləsi, sırf ənənəvi öyrəşilmiş kateqoriyalara nisbətən fərqlidir deyə utanılası, sadə dildə desək "adam arasına çıxarılmaz", bəyənilməz, "əcaib möcüzlük", yoluxucu və ya təcrid ediləsi xəstəlik deyil, ümumiyyətlə, xəstəlik heç deyil. Şayət, olsaydı belə, yenə ifadə edilməsi, aşkar və bəyan edilməsi, sərbəst şəkildə və heç kimdən də dala qalmadan yaşanması ayıb və qadağan olmayan, heç nə ilə qadağan olunmayan tam müstəqil və bərabərhüquqlu bir özünühissetmə, özünüdərketmə və özünüifadə vahididir. Dünyada gəlmiş-getmiş, hüququn, əxlaq məcəllələrinin, qanunların, dinlərin, dövlətlərin, xalqların etno-psixologiyasında tanınmış-tanınmamış, bəyənilmiş-bəyənilməmiş, təqib edilmiş və ya tərif edilmiş saysız-hesabsız çoxsaylı, çoxçeşidli şəxsi və birgə yaşayış hallarından, ifadə edilə bilinən maddi-mənəvi insanlıq hallarından sadəcə biridir. Mövcud olması necə bir haqsa, ifadə olunması da eləcə bir legitim haqqdır. Kimsə cisgender hetereseksual fərdə və ya ailəyə öz təbii halında, görünüşündə, genderini və seksualllığını ifadə tərzində publikaya çıxanda bununla özlüyündə, sırf qadın/kişi olduğun üçün və bu gender və seksuallıq ilə xalq arasına çıxdığın üçün "əxlaqsızlığı yayırsan", "özünü reklam edirsən", "uşaqları pis öyrəşdirirsən", "bu tərzi təbliğ edirsən" demirsə, LGBTİ fərdlərinə də bunları deməyə haqlı deyildir. Öz olduqca şəxsi-fərdi fiziki-ruhi (psixosomatik) vəziyyəti barədə özünün hürr düşüncəsini və hiss etdiklərini azadə şəkildə yaratmaq, emal və ifadə etməkdə eynilə sərbəstdir. Xüsusən də, bunlar müasir tibb və hüquq elminin mövqeyilə üst-üstə düşürsə, bunları yaşamağa və ifadə etməyə, bu ikisini fikir və hərəkətlərlə müdafiə etməyə sədd qoymaq anlaşılan deyil.

Bu cür iki fundamental hüququn sırf ənənə, stiqma və stereotiplərə uymaq, köhnəlmiş hüquqi və sosial intizama tabe olmaq, hüquqi və sosial probemlərlə daha az üzləşmək naminə, bu kimi əsaslarla bir tərəziyə qoyulması isə həm şəxsi/ailə həyatı hüququ, həm ifadə azadlığı baxımından ciddi müdaxilədir. Məhz bu cür ifadə edilməklə bağlı olduğu üçün, bir çox hallarda qaçılmaz olaraq bəzən LGBTİ fərdlərin oriyentasiyasını və gender kimliyini hədəfə alanda bu cür müdaxilələr məhz ifadə azadlığına müdaxilələrlə müşayiət olunur. **AİHK 10-cu maddəsi, Konstitusiyanın 50 və digər maddələrilə** təminat verilən bu hüquqa müdaxilə üçün çox az və ciddi sayda əsaslar müəyyən edilib. Bunlar AİHM 8-ci maddəsindəki müdaxilə əsasları ilə oxşar əsaslardır.

AİHM.Maddə 10

**Fikri ifadə etmək azadlığı**

1. Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur.

2. Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi üçün, gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmiyyətə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.[14]

[14] http://www.e-qanun.az/framework/1405

Eynilə LGBTİ fərdlərinə dair işlərdə bu özünü-sözünü ifadə etməyə qarşı pozuntular, müdaxilələr qəbullanmamağın verdiyi qıcığın, acığın motivi altında eksessiv məhdudiyyətlərə səbəb olur.

Məşhur **Vejdeland və Qeyriləri v. İsveç işində (9.2.12),** Ərizəçilər 2005-ci ildə orta məktəbin yuxarı siniflərinə 100 pamflet yaymışdılar, məhkəmələr pamfletləri homoseksuallara qarşı nifrətamizlik ifadə edən kontent/məzmun kimi tanımışdı. Ərizəçilər də xüsusilə ondan şikayətçi idilər ki, İsveç Ali Məhkəməsi onları milli və ya etnik ədavətin təbliğində təqsirli bilmişdilər, bu isə onların ifadə azadlığını pozur. Strasburq Məhkəməsi isə bildirdi ki, 10-cu maddə, yəni onların ifadə azadlığı bu məsələdə heç də pozulmayıb, çünki məhkəmələrin onların bu cür özünü ifadə azadlığına öz verdikləri qərarlarıyla etdikləri müdaxilə (yəni onun qanunsuz və cəzalanmalı əməl sayması və cəzalandırması) əsaslı və haqlı idi. O baxımdan ki, İsveç dövlət hakimiyyət orqanları bunu edəndə "başqalarının ləyaqət və hüquqlarının qorunması  məqsədilə demokratik cəmiyyətdə zəruri" hesab edib cəzalandırıcı hərəkət etmişdilər. Onlar belə hesab etməkdə haqlı və düzgün (reasonable) hərəkət etmişlər. Məhkəmə bununla nifrət nitqini bir daha ifadə azadlığının qoruma çətiri altına buraxmayıb, kənara atmış olurdu. Xüsusilə də onu vurğuladı ki, hətta baxmayaraq ki, kontentdəki ifadələr nifrətçi/ədavətkar hərəkətlər etməyə birbaşa çağırış ehtiva etmirdilər, ifadələrdə çox ciddi və qərəzli (prejudisal) iddialar vardı. Məhkəmə tarixi ifadələri qərarında işlədərək bildirdi ki, seksual oriyentasiyaya görə ayrı-seçkilik özlüyündə irqi, insanın mənşə mənsubiyyəti, dərisinin rənginə görə ayrı-seçkiliklə eyni dərəcədə ciddi, ağır ayrı-seçkilikdir.

Kaos Gl v. Türkiyə işində (22.11.2016) türk polisi gey və lezbiyanların həmrəyliyi və mədəni öyrənilməsi üzrə təşkilatın çap etdirdiyi jurnalın bütün nüsxələri yığışdırıb aparmışdı. Təşkilat da həm müsadirədən, həm də jurnalın baş redaktoru və təşkilatın rəhbərlərinə qarşı cinayət təqibi açılmasından narazı idi. Məhkəmə burda da 10-cu maddənin pozulduğunu tanıyıb. Məhkəmə bizim dövlət orqanları və yüksək vəzifəli şəxslərin, ictimai xadimlərin lüğəti üçün də çox populyar və eyni etno-psixoloji identifikasiya baxımından Azərbaycan ictimaiyyəti üçün də çox tanış olan bir arqumentə qiymət verib onun **yetərsiz** hesab elədi. Söhbət ondan gedir ki, türk hakimiyyət nümayəndələri də özlərini müdafiə edəndə başlıca əsas kimi ona istinad etmişdilər ki, nə ediblərsə, ictimai əxlaqı qorumaq naminə ediblər. Məhkəmə isə bildirdi ki, müsadirə (götürmə) qərarını çıxarmağa və bütün nüsxələri kütləvi şəkildə və həm də beş illik bir uzun müddətdə yığışdırmaq kimi ciddi müdaxilə hərəkətlərini əsaslandırmaq, haqq qazandırmaq üçün bu əsas kafi deyildi.  Burda önəmli olan odur ki, məkhəmə heç də özlüyündə mexaniki olaraq heç nəyə baxmadan **ictimai əxlaqı rədd etmədi. Məhkəmə ictimai əxlaqı (mənəvi mülahizələri) ictimai qaydanın, asayişin bir hissəsi kimi nə inkar etmədi, nə iqnor etmədi, nə də rədd edilən və ya qəbuledilməz də saymadı. Məhkəmə qəbul da etdi ki, hansısa spesifik fərdlər qruplarının, o cümlədən də azyaşlıların bu nəşrə əlçatımlığının qarşısını almaq üçün tədbirlərin görülməsi özlüyündə təxirəsalınmaz ictimai tələbat (pressing social need) zərurətindən irəli gələ bilər, bu legitim zərurəti təşkil edə bilərdi. Lakin, AİHM vurğuladı ki, yerli orqanlar bunu etmək üçün bu cür bir məqsədəuyğun davrana bilməyib, kobud müdaxiləni seçib. Jurnalın bütün nəşrlərini kütləvi yığışdırmaq əvəzinə ondan daha yüngül preventiv (qabaqlayıcı) tədbirləri, məsələn, 18 yaşdan aşağı şəxslərə satışını qadağan etmək, yaxud uşaqlar barədə diqqət-xəbərdarlıq ehtiva edən şəkildə tərtiblənməyi tələb etmək kimi tədbirləri görməyə heç çalışmamışdılar.**

Göründüyü kimi, bir çoxlarının stiqmatik düşünə biləcəyinin əksinə olaraq, beynəlxalq məhkəmə instansiyası ictimai maraqları, ictimai əxlaqı, uşaqların və s. ayrı-ayrı qrupların hüquq və maraqlarını dərhal və heç nəyə baxmadan inkar etmir. Onları ölçən zaman tələb edir ki, bu ictimai, fərd və qrup maraqları ilə, ona qarşı dayanan, rəqabətə girən tərəflərin hüquqlarını, azadlıqlarını, qanunların və edilmiş müdaxilələrin məqsədlərini düzgün ölçüb, düzgün qiymət verilsin. Düzgün və ədalətli qiymət kimi də, məhkəmə demokratik cəmiyyət meyarını, onun dəyərlərini götürür, müasir elmə - tibb, sosiologiya, psixologiya, hüquq və digər

elmlərin nailiyyətlərinə, müasir sosial-siyasi trendlərə istinad edir, trans/homo-fobiyanı, önyarğılı stiqmanı bu dəyərlərlə və əsaslarla bir araya sığmayan sayır. Ona görə də sadəcə "milli", "ənənəvi" sözləri ilə, yaxud uşaq hüquqlarını müdafiə etmək adı altında daldalanmaqla homofobiyanı bəraətləndirmək mümkünsüzləşir. Dövlət təqdim etdiyi formal məqsədlərlə uzlaşmayan, onları kəskin aşan tədbirlərlə bu zaman özünün əsl məqsədini də "ifşa" etmiş olur.

Beləliklə LGBTİ fərdi olan şəxsin özü, onun xeyrinə bir başqası bunu ifadə edə bilər, bu ifadə qanuni şərtlərlə tənzimlənə bilər, amma ləğv edilə bilməz, özünü cəmiyyətdə cinsi təmayülü ilə özü istədiyi və/və ya olduğu kimi göstərmək, özünü fərdi və ictimai kontekstlərdə ifadə etmək haqqı var. Hər bir hüquqi legitim bir haqq kimi qanuni olanı gizlətməyə də, buna görə utanmağa da heç kim borclu olmadığı kimi, LGBTİ fərdi də öz varlığı, geyimi-kecimi, adı-soyadı, seçdiyi ləqəbi, ictimai və fərdi məşğuliyyəti, fikirləri ilə ifadə haqqına sahibdir və bu haqq ənənəvi, milli, dini, məhəlli və ya hər hansı adlı demokratik cəmiyyətdə zəruri olmayan dəyərlər, əsaslar, qanunlarla ayıblana, damğalana, qadağan edilə, zərər verilə və bərabərlikdən məhrum edilə bilməz.

## Yerli hüquqi çərçivə

Müvafiq olaraq Azərbaycanda nifrət cinayətləri ayrıca çətir anlayış altında kriminallaşmır. Şəxsi həyat, təhlükəsiz yaşamaq, mənzil toxunulmazlığı da beynəlxalq normalara uyğun gələn konstitusion səviyyədə Azərbaycanda ən yüksək (Konst. md. 31, 32, 33) qoruma altındadır. Bunların pozulması cinayət məsuliyyətidir. İrili-xırdalı vurduğu ziyanın, ictimai təhlükənin həcmindən asılı olaraq digər məsuliyyət növlərinə də məruz qala bilinir. Nifrət cinayəti baxımından, fiziki və psixi əzab, iztirab kimi ağır, şiddətli əməllərlə müşayiət olunan ayrı-seçkiliklər üçün də konstitusion immunitet/proteksiya var. Belə ki, Konstitusiyanın 31-ci maddəsinə görə, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

Bu cür müdaxilələrin ən ağır növü olan işgəncələri qadağan edən çoxsaylı beynəlxalq sənədlərə ölkə qoşulub. Həmçinin Konsitusiyamızın 148, 151-ci maddələrinə əsasən beynəlxalq müqavilələr qanunvericilik sistemimizin tərkib hissəsidir. Konstitusiyanın 12-ci maddəsinə əsasən, insan hüquqları və azadlıqları ilə bağlı məsələdə milli normativ aktlarımızla beynəlxalq müqavilələr arasında ziddiyyət olduqda beynəlxalq müqavilələr üstün hüquqi qüvvəyə malikdir. Bu baxımdan, Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü maddəsi və həmin Konvensiyanın rəsmi şərhi olan, məcburi qüvvəli qərarlar qəbul edən Avropa Məhkəməsinin həmin presedent hüququ (bu və digər maddələr üzrə işləri) Azərbaycan üçün ali məcburi hüquqi qüvvəli üstün əsaslardır. Ölkənin cinayət məcəllәsi üç maddədə işgəncənin müxtəlif növlərini ağırından yüngülünə kriminallaşdırır, 113-cü maddə insanlıq əleyhinə cinayətlər bölümündə, qalan hallarda həyat və sağlamlıq əleyhinə cinayət kimi 133-cü maddə (ağır və az ağır xəsarətə səbəb

olmayan mütəmadi döymək və sair zorkaılıq hərəkətləri ilə güclü fiziki ağrı və psixi iztirablar vermə) və ədalət mühakiməsinə qarşı cinayətlər bölümündə 293-cü maddədə kriminallaşdırır. Lakin istər LGBTİ işləri, istər bir çox işlərdə bu maddənin tətbiqini görmək mümkün olmur.

Maddə 133

Əzab vermə

133.1. Bu Məcəllənin 126 və 127-ci maddələrində göstərilən nəticələrə səbəb olmayan mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə - iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 133.2. Eyni əməllər: 133.2.1. iki və ya daha çox şəxsə qarşı və ya girov götürülən yaxud oğurlanmış şəxsə qarşı və ya sifarişlə törədildikdə; 133.2.2. aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə; 133.2.3. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə; 133.2.4. təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə; 133.2.5. zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumlarına qarşı törədildikdə; 133.2.6. işgəncə verməklə törədildikdə - iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 133.3. Bu Məcəllənin 133.1 və 133.2-ci maddələri ilə nəzərdə tutulan əməllər şəxsdən məlumat almaq və ya onu etirafa məcbur etmək, yaxud törətdiyi və ya törədilməsində şübhə doğurduğu əmələ görə həmin şəxsi cəzalandırmaq məqsədi ilə öz qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən və ya onun təhriki ilə törədildikdə - beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 293

İşgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza.

293.1. Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar dövlət orqanının vəzifəli şəxsi və ya bu qisimdə çıxış edən digər şəxs tərəfindən, yaxud onun təhriki və ya razılığı ilə, yaxud o, xəbərdar olduğu halda başqa şəxslər tərəfindən şəxsi qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qoyma, həmin əməldə bu Məcəllənin 293.2-ci maddəsində nəzərdə tutulmuş işgəncə əməlinin əlamətləri olmadıqda – 4000-6000 manat həddə cərimə və ya 2 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 2 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

293.2. Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar dövlət orqanının vəzifəli şəxsi və ya bu qisimdə çıxış edən digər şəxs tərəfindən, yaxud onun təhriki və ya razılığı ilə, yaxud o, xəbərdar olduğu halda başqa şəxslər tərəfindən işgəncə vermə – üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 3-8 illiyə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

293.3. Eyni əməllər sağlamlığa ağır və ya az ağır zərər vurmaqla törədildikdə – altı ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Qeyd: Bu maddədə, habelə bu Məcəllənin digər maddələrində "işgəncə" dedikdə şəxsin özündən və ya digər şəxsdən məlumat və ya etiraf almaq, yaxud onu və ya digər şəxsi qorxutmaq, özünün və ya digər şəxsin törətdiyi və ya törədilməsində şübhəli bilindiyi əmələ görə cəzalandırmaq, iradəsi əleyhinə hər hansı əməli törətməyə məcbur etmək məqsədilə və ya ayrı-seçkiliyə əsaslanan hər hansı səbəbdən ona güclü fiziki ağrı və ya psixi iztirablar vermə başa düşülür.

## Praktika

a) Fiziki zorakılıq

Homofobik və transfobik zəmində zorakılıq – şəxsin gender kimliyinə, seksual oriyentasiyasına görə törədilən şiddətə deyilir. Bu anlayış altında o əməllər başa düşülür ki, həmin əməlləri LGBTİ fərdlərinə və ya icmasına qarşı məhz homofobik və transfobik motivlərlə törədirlər. Bu motivlə törədilən hər cür fiziki və psixoloji zorakılıq aktları homofobik və **transfobik zorakılığı (şiddəti)** təşkil edə bilir.

Baxmayaraq ki, LGBTİ icması üzvlərinin çoxsaylı hüquq və münasibətlərinin dinamikası qohum və sair ən yaxın münasibətlər çərçivəsində baş tutur, istər Gender bərabərliyi haqqında qanunda, istər Məişət zorakılığının qarşısının alınması haqqında qanunda milli qanunvericiliyimiz özünü klassik ailə anlayışı, "gender" anlayışını da binar/ikili sistemliliklə, yəni- "kişi" və "qadın" cinsi bölgüsü ilə məhdudlaşdırıb. LGBTİ fərdlərə inklüziv yanaşılmayıb, onları qanunun qoruyacağı müstəqil və bərabərhüquqlu subyektlər sırasına ayrıca salmayıb. Homo/transfobik motivi ayrıca da heç yerdə yazmayıb. Ayrıca qanunla da tənzimləməməkdə hələ ki israr edir. Lakin bəzi anlayışlar, o cümlədən zorakılığa anlayış verilib (ki, məhz hansı hərəkətlər zorakılıq sayılmalıdır). Elə qanunun hüquq praktikası üçün işə yarayası ən minimum faydalarından biri odur ki, bəzi anlayışların məzmununu təyin edib, onlara milli və beynəlxalq cinayət hüququndakı təcrübəyə, normalara uyğun tərif verə bilib. Qanunun 1-ci maddəsindəki anlayışdan[15] göründüyü qədərilə də, zorakılıq, **qəsdən fiziki və ya mənəvi zərər vurmaqdır.**

İnsana həmin fiziki və mənəvi zərəri yetirməyin ən başlıca üsullar kimi də **fiziki zorakılığın**[16] və **psixi zorakılığın**[17] ayrıca anlayışını verib (maddələr: 1.0.3, 1.0.4). İnzibati Xətalar Məcəlləsinin bu qanunu qoruyan 158-ci maddəsi psixi zorakılıq, qəsdən psixi təzyiq göstərmə və **ya dözülməz psixi şərait yaratma** kimi tərif edilib. Burdan yola çıxaraq hesab eləmək olar ki, fiziki zorakılıq – hər hansı motivlə və hər hansı zəmində şəxsə qarşı qəsdən fiziki təzyiq göstərmə, yəni zor tətbiq etməklə təhlükəsizliyi pozma, döymə, sağlamlığa zərər vurma, işgəncə vermə, azadlıq hüququnu məhdudlaşdırma hərəkətləri, həmçinin dözülməz psixi şərait yaratmağa yönəlmiş sair hərəkətlərdir. Bunların hər hansı birinin homo/trans fobiya zəminində törədilməsi də homo/trans fobiya zəminində fiziki zorakılıq sayılmış olur.

**Psixi zorakılıq** - qəsdən psixi təzyiq göstərmə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərdir. Eyni şəkildə burdan yola çıxaraq müəyyən etmək olar ki, eyni motivlə, eyni zəmində homofobik və transfobik əsaslarla bu hərəkətlərin törədilməsi homofobik və transfobik psixi zorakılıqdır.

Bu qanunda "transfobik və homofobik əsaslar" ayrıca yazılmış olmasa da, qanunvericilik onu istisna da etməyib, ayrıca istisnalılar barədə qeyd qoyaraq kənarda saxlamayıb da: zorakılığın özünün anlayışı var və bu, bizə imkan verir ki, hansı hərəkətləri zəminindən, motivindən asılı olmayaraq onsuz da zorakılıq hesab eləyə biləcəyimizi özümüzçün aydın bilək. Buradan onu da özümüzçün müəyyən edə bilirik ki, ondan müdafiə olunmağa hər bir halda hər insan fərdinin haqqı çatır, o cümlədən də istənilən bir LGBTİ fərdinin haqqıdır.

Bu cür müqayisələr bizə imkan verir ki, hansı əməllərdən söhbət getdiyini, hansı hərəkətlərin bu zorakılıq sözünün təsiri altına düşdüyünü özümüzçün ayırd edək. Hərçənd ki, cinayət qanunları anoloji tətbiq

[15] Maddə. 1.0.1. məişət zorakılığı - yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması;

[16] 1.0.3. məişət zəminində fiziki zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, azadlıq hüququnu məhdudlaşdırması;

[17] 1.0.4. məişət zəminində psixi zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətləri;

edilə bilməz: yəni, başqa qanunlarda harasa baxıb, ordakı sözlərlə cinayət əməlinə qiymət verə bilməz. Cinayət qanununda hər anlayış məcəllənin özündə birbaşa yazılmalıdır. Ona görə də aktivistlər bu çatışmazlığı daim tənqid ediblər. Çünki belə halda ölkədaxili müdafiə zəifləyir, beynəlxalq hüquq daha üstün olub geniş anlayışlar tətbiq etdiyi üçün onlara istinad etməyə məcbur qalırlar. Yeri gəlmişkən, beynəlxalq praktika (AİHM) daha geniş yanaşmaya sahibdir və bu kimi halları qüsurlu sayıb.[18]

Üstəlik də, ağırı və yüngülü daxil, törədilən bir çox cinayətlər var ki, həmin kriminal əməllər özü (döymə, azadlıqdan məhrumetmə və s.) LGBTİ fərdlərə qarşı törədiləndə başqa adi məişət hallarında törədildiklərindən daha fərqli bir rol oynayır. Həmin cinayət özü vasitəyə çevrilmiş olur: homo/trans nifrətini həyata keçirməyin bir üsulu olur.[19] Həmçinin beynəlxalq hüquqda akademik və rəsmi mənbələrin də diqqət çəkdiyi kimi, burda əsas narahatverici məqam odur ki, əsas hədəf ümumən insanların birgə dinc yaşayışı, tolerantlıq, müxtəliflik, plüralizm, individuallığa hörmət kimi demokratik cəmiyyətin onurğa sütunlarıdır. Ona görə də istər-istəməz bu sütunları "gəmirən" ayrı-seçkiliyə qarşı mövqe tutmaq üçün xüsusi müdafiəyə ehtiyaclıları xüsusi vurğulayıb, pozitiv fərqləndirib, əlavə-xüsusiləşmiş müdafiəyə layiq görməlidirlər.

Onu da bildirək ki, bu cür əməllərin təsviri (tərifin həmin cürə verilməsi) o demək deyil ki, yalnız bu əməllər fiziki və psixi zorakılıq kimi başa düşülməlidir. Bu, minimum təsvir sayıla bilər. Belə əməllər müxtəlif sənədlərdə geniş, təfərrüatlı şəkildə işlənib, bu barədə giriş bölməsində məlumat verilib.

Bundan başqa, önəmli məsələ odur ki, bəzən təcavüzkar seçdiyi hədəfin seksual oriyentasiya və gender kimliyi barəsində səhvə yol vermiş ola bilir. Lakin hüquq nəzəriyyəsi və praktikası bunu onun xeyrinə yozmur. Bu da beynəlxalq praktika və statistika baxımdan da homo/trans-fobiya baxımdan nifrət cinayətinə daxil ola bilir. Xeyrinə yozulmuş olsaydı, özünə qarşı edilmiş ayrı-seçkilikçi təcavüz, zorakılıq zamanı zərərçəkmiş kimi tanınmaqdan ötrü, zərərçəkmiş mütləq təcavüzçünün güman etdiyi həmən kimlikdə olmalı, ona iddia etməlidir. Yaxud da, yanılmamış bütün təcavüzçülər də yanıldıqlarını asanlıqla iddia edib məsuliyyətdən kənarda olardılar və s. Göründüyü kimi, misal çəkilmiş cinayətlərdə niyyət əsas götürülüb qiymətləndirilir. Ona görə də bu mövqe elə nifrət cinayətlərinə anlayışın da əsasında durmalı məsələdir. Cinsi oriyentasiya motiv kimi həmin cinayətləri nəzərdə tutacaq maddələrin mətnində başlıca dispozisiya elementi (təsvirdə) kimi yerini tutmuş olmalıdır. Bəzən heteroseksual adamların "damğalanması" üçün homoseksual adlandırılması, alçaldıcı faktor kimi görülməsi (həm alçaldan, həm alçalan tərəfindən) özü də ayrıca bir homo/trans-fobik məsələdir.[20] Başqa sözlə, hədəfdə olan şəxslərin həqiqətən də LGBTİ fərdi olmadığı hallarda da məğz-mahiyyətincə homo/trans-fobiyadan qaynaqlanan və ona xidmət edən əməllər də bu bölmədə şərh edilə bilər. Zira, kökü, məğzi burdan qaynaqlanır, belə bir nifrət olmasa, stiqma onu doğurmasa, bu cür nifrət cinayətinin baş verməsinə bir motiv,

[20]Bəzi hallarda heterenormativ meyarlara cavab verən cisgender şəxslərə qarşı da müxtəlif sahələrdə, haqsız rəqabət və s. situasiyalarında bəzi insanların mühafizəkar cəmiyyət, seçici, işgüzar dairələr mühitində nüfuzdan salınması, damğalanma, ələsalma və sair bu kimi alçaq cinayətlərdə də cinayət üsulu/vasitəsi kimi məhz homo/trans-fobiya mövzusu çıxış edir. Bu zaman cisgender şəxslərin də daxil edildiyi bir nifrət nitqi vəziyyəti yaranır. Bu halda da, şəxsin gender kimliyi nə olursa olsun, situasiya nifrət nitqi və düşüncəsinin parazitar yayımlanmasıdır.

[21]CM. Maddə 134. Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, hədənin icra ediləcəyi üçün real əsaslar olduqda— min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

[18]Identoba və başqaları v. Gürcüstan, M.C. və C.A. v. Rumıniya, 12060/12, 12 April 2016, Aghdgomelashvili və Chaparidze v. Gürcüstan, 7224/11

[19]https://www.echr.coe.int/Documents/Guide_Art_8_ENG.pdf İDİ. LGBT Azərbaycan situativ hesabat, 2019. https://arqument.az/az/idi-lgbt-hquqlar-ile-bal-hesabat-yayd/

başqa bir əsas da qalmır. Həmçinin bunun çox ictimai təhlükəli həcmdə bir xüsusatı var: publik, siyasi rəqabətlərdə bu cür ayıblama, gözdənsalma vasitəsi qismində istifadə edilmə. Ölkədə mütəmadiyən, təəssüf ki, bu barədə məlum təcrübəyə müraciət edilib.

Xəsarətlə nəticələnən hərəkətlər artıq şərh olunduğuna görə, bu bölmədə elə təkcə onu bildirməyi kifayət hesab edirik ki, bu zorakılıq hərəkətlərinin **hədəsi belə** cinayətdir (CM.134)[21]

## Monitorinq qrupunun müsahibi olduğu qurbanlar:

### Homoseskual kişi, 20 yaşlarında, Gəncə, 2018

A.M. adlı şəxs məlumat verib ki, 2018-ci ilin noyabrında Gəncədə üç nəfər şəxs bir qadının təhriki ilə gey oğlanın iş yerinə hücum edib. Hadisənin təfərrüatlarından belə nəticə hasil olur ki, qadının əsl motivi əslində şəxsi iqtisadi maraqlarını təmin etmək və əvəz çıxmaq olub. Belə ki, təhrikçi oğlanın onun işini plagiat etdiyini düşünərək bu acıqla hərəkət edib. Publik gözdənsalma və əvəzçıxma üçün bəhanə qismində isə publikaya tutarlı, təsirli vasitə kimi isə homofob əsaslar səsləndirməyi seçib. Bu isə, məsələyə nəinki aidiyyatı olmayan, şəxsin işi, iddia olunan plagiatçılıq əməlləri ilə də hər hansı şəkildə əlaqəsi olmayan bir məsələ idi. Üstəlik rayon yerində şəxsin həyat və təhlükəsizliyini **real riskə** atan ciddi vəziyyət idi. Məsələni həssaslaşdırmaq üçün "gey" kəlməsini nalayiq ifadəlilik üçün işlədib, üstəlik də uşaqların tərbiyəsi barədə mülahizələrlə də insanları körükləyib: **"burda gey təbliğatı aparırlar, uşaqlarımız var"** kimi sözlər işlədib. Məhz bu hay-küyü salıb camaatı həyətə töküb. Onun çağırışına qoşulanlar da təhrikə uyaraq oğlanı ağır söyüşlərlə təhqir edib, ofisin qapısını sındırıb, şahidlərin gözü önündə və polisin yanındaca həmin oğlanı yumruq-təpiklə möhkəm döyüblər.

### Adı açıqlanmayan lezbiyan, 17 yaş, Bakı, bir neçə il sərasər

S. adlı LGBTİ fərdi məlumat verib ki, bir dostu ailədə daimi hərtərəfli fiziki və psixi təzyiqlə üzləşib. Zərərçəkən seksual təmayülü lezbiyan olan 17 yaşlı paytaxt sakinidir. Onun seksual oriyentasiyası və kimliyi onlar üçün qəbuledilməzdir. (bu işlə bağlı həmçinin bax: psixi zorakılıq bölümünə)

### S.M., homoseksual kişi, 21 yaş, Siyəzən

2019-cu ildə ailəsi övladlarının gey olmasını biləndə üstünə düşüb onu ailəlikcə döyüblər.

### b) Psixoloji zorakılıq

### Homoseksual kişi, 20 yaşlarında, Bakı, 2018

Oriyentasiyasını davranışla ifadə etməkdən çəkinməyən gey oğlanı 2018-ci ilin dekabrında günün günorta çağı Bakıda ictimai ərazidə gəzdiyi yerdə, insanların (laqeyd münasibət göstərmiş neçə-neçə adamın) gözü qarşısındaca bir qrup qaqaş (4 nəfər)[22] toplu şəkildə yüksək səslə və təhqiramiz tərzdə sataşaraq, "petux" (özlərinin təbirincə geyləri alçaltmaq üçün işlənən ənənəvi ifadə) ilə sözlü ictimai toplu verbal bullinqə məruz qalıb.

### E.A., homoseksual kişi, 28 yaş, Bakı

E.A.-nin işində 2018-ci ildə Bakıda 28 yaşlı geyin internetdə böyük izləyici kütləsi olan bir səhifədə şəklini təhqirlə paylaşıblar, adamı lağ obyektinə çevirib, ələ salıb, insanların söyüşlərinə hədəf ediblər. Tanıdığı və tanımadığı adamlar qarşısında özünü alçaldılmış hiss edib. Hələ də travması keçməyib.

[22] Qaqa(lar) - sasən aşağı sosial-iqtisadi göstəricilərə malik, aşağı təhsilli, əsasən dar sayıla biləcək dünyagörüşlü, mühafizəkar baxışlı, özlərini milli və dini mentalitetin keşikçiləri kimi aparmaqda xüsusi həvəsli olmaqları ilə fərqlənən, onun başlıca tərkib hissəsi kimi gender kimliyinə və bərabərliyinə aşağı hörmət bəsləməyi və bunu fiziki zorla nümayiş etdirməyi özünə xüsusi borc bilən, müəyyən qədər cinayətkar vərdişlərə və mühitə simpatik, bura meylliliyi ilə seçilən gənc oğlanları ümumiləşdirmək üçün işlədilən ümumi ifadələrdən biri. LGBT fərdi və icmaları üçü tam və ya qismən kəskin antoqonizmi ifadə edə bilir.

tanımadığı adamlar qarşısında özünü alçaldılmış hiss edib. Hələ də travması keçməyib.

### A.S., homoseksual kişi, Gəncə, 2019

Gəncə polisi isə 2019-cu ilin əvvəlində A.S. adlı geyi yolun ortasında getdiyi yerdə camaatın gözü qabağında kobud amiranə şəkildə çağırıb, saxladıb, soruşub ki, niyə onlara baxıb, halbuki A.S. deyir ki, heç onlara baxıb etmirmiş. Bu, sadəcə bəhanə olub. Çünki elə ordaca polis onu birbaşa gey olduğu üçün təhqiramiz ifadələrlə və söyüşlərlə söyüb.

### Adını açıqlamaq istəməyən biseksual kişi, Gürcüstanla sərhəd rayonu (Qazax), 2018

Biseksual kişi 2018-ci ilin noyabrında Gürcüstanla sərhəd məntəqəsini keçəndə sərhədçilər onu ələ salıblar. Sənədi qəbul edən zabit həmkarına şəxsin barəsində istehzalı tərzdə və yolverilməz, alçaldıcı jarqonla deyib ki, “buna bax, petuxa oxşayır”. Şəxs sərhədçiyə nə danışdığını soruşub, onunla danışmağa cəhd etsə də, zabit yayınıb. Amma yayınıb, amma daha astadan mızıltıyla mövzunu davam etdirməkdən də vaz keçməyib.

### Adı açıqlanmayan seksual təmayülü lezbiyan, 17 yaş, Bakı, bir neçə il sərasər

S. adlı LGBTİ fərdi məlumat verib ki, bir dostu ailədə daimi hərtərəfli fiziki və psixi təzyiqlə üzləşib. Zərərçəkən interseks olub seksual təmayülü lezbiyan olan 17 yaşlı paytaxt sakinidir. Onun seksual oriyentasiyası və kimliyi ailəsi üçün qəbuledilməzdir. (bu işlə bağlı həmçinin bax: fiziki zorakılıq bölümünə)

### A.S., homoseksual kişi, 25 yaş, Bakı, 2018

A.S. təhsil aldığı yerdə müntəzəm olaraq homofob bir qızın qəsdən sataşmalarına uğrayıb. Dözməyib cavab qaytardıqda isə konflikt yaşanıb: münasibətlər ölümlə hədələməyə qədər gərilib, üstünə əşya atıb, tutaşmanı kurs yoldaşları araya girib önləyib. Polisə şikayət nəticəsiz olub. Polis idarəsində bəzi əməkdaşlar alçaldıcı davranıb. Bu cür atmacaları həmişə başqa yerlərdə də eşidib, eşidir. hətta intihara cəhd də edib.

### Ə.H., homoseksual kişi, 20 yaşlarında, Bakı, 2019

2019-cu ilin aprelində yaşadığı yerə yaxın ərazidə polis əməkdaşı gənc homoseksual kişini cinsi əlaqəyə məcbur etmək məqsədilə psixoloji müqavimətini qırmaq üçün həbslə hədələyib və şəxs qorxu içində yaşayır.

## Hüquqi çərçivə

Göründüyü kimi, əsasən bu diskriminativ əməllər cinayət və inzibati hüquqpozmalar üzrə qanunvericilikdə zorakılıq əməlləri barədə maddələrin dispozisiyalarında təsvir olunmuş əməllərdir, onların yurisdiksiyası altına düşür. Bir qayda olaraq fiziki zor və ya psixiki təzyiqlərdə, hədə və təhqiramiz davranışda ifadə olunur. Bir qismi yetikinlik yaşı çatanlar, bir qismi də y.y. çatmayanlar tərəfindən və ya onlara qarşı törədilir. Bir qismi ailə üzvləri, digər qismi də vəzifəli şəxslərin iştirakı ya da susqun razılığı, aktiv şərait yaratması və ya müdaxilə edilməli olduğu məqamlarda edilməmiş passiv müdaxiləsizliyi ilə törədilib.

Beynəlxalq təcrübədə həssas qrupların, o cümlədən də LGBTİ icmasının bu spesifik əlverişsiz, həssas durumlarına görə onların xüsusi qorunmasını təmin edən qanunlar qəbul edirlər. Eləcə də ayrı-ayrı məcəllələrdə inzibati xətalar və cinayətlər üzrə maddələrdə məsuliyyəti ağırlaşdırırlar ki, daha yüngül motivlə törədilən cinayətlərdən əhəmiyyətli şəkildə fərqlənsin. Həmçinin yetkinlik yaşına çatmayanlarla iş baxımdan ayrıca anti-bullinq qanunu da uğurlu tənzimetmə sayılır, Ukayna kimi göstəriciləri bizə yaxın olan post-sovet ölkəsində də tətbiq edilir və ölkəmizə də tövsiyə olunur.[23]

Göründüyü kimi, eyni kobudluq, stiqma, xorgörmə, nifrət əsası ilə bu qədər çoxsaylı pozuntu olduqca geniş spektrdə, fərqli-fərqli situasiyalarda, cürbəcür adam tərəfindən eyni icmaya məxsus adamlara qarşı oxşar motivlə törədilib. Bu cür bariz fakta baxmayaraq, bu hallar hələ ki, yerli qanunvericilikdə ayrıca və gücləndirilmiş-xüsusiləşdirilmiş tənzimini tapmayıb. Xüsusi pis vəziyyətlər xüsusi tədbirlər tələb edir: nə qədər ki, fundamental və sistemli olaraq bu ayrı-seçkiliyin ləğvi baş tutmayıb, onu daha tez likvidasiya etmək üçün daha çevik, qabaqcıl, mütərəqqi normativ bazaya sahib olmaq qaçılmazdır. Əvəzində hazırda qüvvədə olan pərakəndə və ənənəvi maddələrlə belə nifrət-mənşəli əməlləri törədənlər ənənəvi cinayət əməlləri adı ilə təqib edilə bilinir. Fiziki döymə hallarının hamısında xəsarətin ağırlığından asılı olaraq, ən az xətərli halda İXM-nin 157-ci maddəsi işə düşə bilir (əvvəllər bu cinayət məcəlləsində idi).[24]

Həmçinin hansı motivlə olursa-olsun, öz şəxsi eqosunu, deməli, kimliyinin bir hissəsi olan cinsi oriyentasiya və kimliyini də başqalarınınkından əsassız olaraq üstün tutan və bu üstünlüyü fiziki şəkildə isbatlamağa çalışan, bunu açıqda hörmətsizlik şəklində başqalarının gözü önündə qərəzli edənləri xuliqanlıq ittihamı da gözləyə bilər. Bunlar zorakılıqla edilməyəndə adi halda inzibati məsuliyyətdir **(İXM, xırda xuliqanlıq, md 510)**.[25] Zorakılıqla, hədəylə, əmlaka ziyan vurmaqla ediləndə Cinayət Məcəlləsinin "xuliqanlıq" maddəsinə (CM. 221) əsas verir. Bir halda ki, şəxs burda **ictimai qaydanı** sayılsın. Burda ictimai qaydaya insanların konstitusion hüquqları, deməli, cinsi ayrı-seçkiliyə məruz qalmamaq, özünü həyat tərzi ilə ifadə etmək, şəxsi həyata müdaxilə etməmək və dinc yanaşı yaşamaq da daxildir. Lakin LGBTİ fərdə qarşı praktikada bunun belə sayılmadığını görürük. İXM-nin 511-ci maddəsində insanların dincliyini və yollarda təhlükəsizliyi təhdid altına aldığı üçün avtoxuliqanlığı xüsusi ayırıb cəzalandıran qanunverici, anlaşılmaz şəkildə eyni münasibəti cinsi zəmində məsələlərə aid etməyə çalışmır. İnsanların çox ciddi hüququ və məhrəm arealı, toxunulmaz, həssas, qanuni immunitetli bir fenomeni olan cinsi kimliyini,

[24] Maddə 157. Döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə - 300-500 manat aralığında cərimə, işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla 2 ayadək inzibati həbs olunur.

[25] Maddə 510. Xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərə görə - əlli manatdan yüz manatadək məbləğdə cərimə, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, on beş günədək müddətə inzibati həbs tətbiq olunur.

[23] Sexual orientation issues, ECHR, Handbook: https://www.echr.coe.int/Documents/FS_Sexual_orientation_ENG.pdf

oriyentasiyasını bu cür çoxşaxəli, sistemli, stiqmatizasiyadan və homofobiyadan qaynaqlanan təhdidlərdən qorumağa tələsmir. Bu legitim qorunmalı olan cinsi kimlik və oriyentasiyanı kobud şəkildə hədəfə alan, onu aşağılayan və ələ salan, LGBTİ insanının psixologiyasını təhdid edən, açıq və stiqmatik (önyarğılı) hörmətsizlik ifadə edən, vurduğu travmaların nəticələri ömürlük ola bilən, bu cür ictimai və fərdi kontekstin hər ikisində də çox təhlükəli olan, demokratik cəmiyyət dəyərləriylə bir araya sığmayan, homofobiyanı və stiqmatizasiyanı bəsləyən və ona geniş vüsət verdirən əməllərin **faktiki olaraq genxuliqanlıq (gender əsaslı xuliqanlıq)** olduğunu və hesabatlara əsasən bunun ölkədə geniş yayıldığını görə-görə, təəssüf ki, xüsusi qorumağa çalışmır. Hələ ki vacib görmür. Başqa cinayətlərin ağırlaşdırıcı forması/halı kimi necə saymırsa, qanunverici burda da eynilə saymazyana yanaşır. Məsələn, bu qədər ciddi ictimai təhlükəli olan, nifrətkarlığın daha da ayaq açmasına səbəb olan, demokratik cəmiyyətin dinc birgə yaşayış prinsipini kökündən baltalayan əməllər içində, heç olmasa, ən çox baş verənləri üçün, məsələn, xuliqanlıq cinayətində ağırlaşdırıcı hallara əlavə etmək olardı. Nəticədə pərakəndə maddələrdə adi zəmində döymə, təhqir və s. hallarla eyni baxır. Burada əməlin gerçək subyektiv cəhəti – motiv (nifrət, homofobiya) bu əməlləri kriminallaşdıran maddələrin dispozisiyasında (yəni cinayət məcəlləsinin həmin maddəsi ilə cəzalanacaq olan əməli təsvir edən hissədə) mətndə yoxdur deyə, işə baxılanda nəzərə alınmır. Dispozisiya normanın mətnində mərkəzi-təsviredici elə hissədir ki, məhz həmin hissədən bilinir ki, hansı konkret hərəkətlər, əməllər (cinayətin obyektiv cəhəti) hansı ictimai münasibətləri təhdid edəndə (obyekti), həmin əməli kimlər edəndə (subyekti) və hansı niyyət, motiv və məqsədlə ediləndə (cinayətin subyektiv cəhəti) məhz qanunla cinayətdir. Qanunverici məhz bura motiv elementini qoymur, yerləşdirmir, bununla da nifrət cinayətinə digərlərindən fərq qoymadan adi yanaşır. Halbuki, xüsusi  həssas qrupların spesifikası və dövlətin doğrudan da həqiqi şəkildə, səmimi olaraq iradə nümayiş etdirib diskriminasiyanı və onun nüvəsi, mayası olan stiqma, stereotipik yanaşmanı ləğv etmək istəyi məhz burda - əlavə gücləndirilmiş təminatlarla şiddətli şəkildə mübarizə aparmağında özünü göstərir. Bu isə hələ müşahidə olunmur. Bir az əksinə, məlum reydlərin timsalında dövlətin iştirakı ilə edilən diskriminasiyaya imkan və rəvac verildiyi müşahidə olunub. Yəni indi bizim qanunvericimiz üçün fərqi yoxdur, xuliqanlıq, yaxud adamöldürmə, təhqir adi özbaşınalıqdan, sərxoşluqdan, tamahdan, sözün çəp gəlməyindən, hadisələrindən təsadüfi axımından baş verib, yoxsa daha ictimai təhlükəli motiv burda ola bilər. Ona görə də bu motivin vüsət almaması, əl-ayaq açmaması üçün xüsusi ağır cəzayla cəzalandırmaq lazımdır, fərqləndirmək lazımdır. Bu fərqin qoyulmaması özü pozitiv öhdəliklərin pozulması olardı. Qanunverici fərqinə varmaqda yubanır ki, bu qədər baş verən pozuntu patriarxal ənənələri dərin kök atmış, ümumi hobofobik və ya hobofil olmayan sosial mühitdən qaynaqlandığı üçün bundan sonra da başvermə riski yüksəkdir. Daha bir pozitiv öhdəlik, yəni hərəkətə keçmək zəruri ikən bunu etməmək nöqsandır. Çünki bu halda indiyə qədər qanunverici ayırd etmir ki, adi məişət situasiyasında baş verən xuliqanlığı, qətli, xəsarəti, döyməni, hədələməni, təhqir və böhtanı, maddi ziyan vurmanı, əmlakı zədələməni, qısnamanı, bullinqi, əzabverməni, əmək hüquqlarını pozmanı, bərabərlik hüququnu pozmanı, mənzilə və şəxsi həyata qəsdi, qanunsuz tibbi müdaxiləni, yardım göstərməkdən imtinanı, azadlığı məhdudlaşdırmağı, adam oğurluğunu, insan alverinə cəlb etməni konkret nifrətdən, gender əsaslı nifrətdən, xorgörmədən irəli gələrək edilmişlərindən ayırmaq lazımdır . Ədavətdən, sair alçaq niyyətlərdən, demokratik cəmiyyətə təhdid yaradan, onun dəyərlərilə bir araya sığmayan  stiqmatik, önyarğılı, parazitar, seksist, seksiyaçı baxışın, motivin tətiklədiyi əməldən belə əlamətləri olmayanlarını ciddi fərqləndirmək lazımdır.

Gəncə hadisəsində, məsələn, adamlar heç şəxsi tanımırdılar, əmlakı dağıtmaqla özünə xəsarət yetiriblər və legitim və əsaslı bir motiv də yoxdur. Xuliqanlıq tanınmırsa, heç olmasa, ayrı-ayrılıqda döymə və talama niyyəti olmadan əmlakı qəsdən zədələməyə, xeyli ziyan (5000+ AZN) vurmağa görə (CM.186) məsuliyyət daşımalıdırlar.

Polisin cinsi əlaqəyə məcbur etməsi halında vəzifəli şəxsin CM.151 maddəsində zərərçəkənin "sair asılılığından" istifadə etməklə cinsi əlaqəyə məcburetməyə cəhd baş tutub artıq. Burda sair asılılıq polisin vəzifə imkanlarında və təhdidin ölkə praktikasında reallıq əmsalının yüksəkliyində, polislə razılaşmamağın "polisin qanuni tələblərinə müqavimət"ə asanlıqla tövsif edilməsi riskinin yüksək olmasında ifadə olunur, kütləvi həbslərdə saxtalaşdırma, "şərlənmə" üsulu kimi bundan istifadə olunması bu riskin təklənmiş adam üçün daha da ağır olduğunu təsdiqləyir.[26]

[26]Maddə 151. seksual xarakterli hərəkətlərə məcbur etmə. Əmlakının məhv edilməsi, zədələnməsi və ya götürülməsi hədəsi ilə və yaxud zərərçəkmiş şəxsin maddi və ya sair asılılığından istifadə etməklə onu cinsi əlaqəyə girməyə, uşaqbazlığa və ya seksual xarakterli digər hərəkətlərə məcbur etmə— 1 ildən 2 ilədək islah işləri və ya 1 ildən 3 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

[27]4.0.1. yaxın qohum olan ailə üzvlərinə (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), habelə birgə yaşadığı hallarda digər qohumlara; 4.0.2. nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvada; 4.0.3. qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslərə, habelə üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslərə; 4.0.4. qanuni nikahda olmadan birgə yaşayan kişi və qadına, habelə onlarla birgə yaşayan yaxın qohumlarına.

[28]Maddə 158. Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması

158.1. Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə- yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

158.2. Məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə- üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

Zorakılıq ailə daxilində, Məişət zorakılığı üzrə qanunda (md.4) sadalanan yaxın qohumlar, birgə yaşayan digər qohumlar və digər subyektlər[27] arasında baş verdiyi hallarda bu qanunla qoruna bilir. Xüsusən sosial izolyasiya edilmələr, sənədsiz, ac, işsiz, ünsiyyətsiz saxlanmalar - Məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə- üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir, ən azından ən yüngül hallarda inzibati məsuliyyətlərə (İXM.158.1, 158.2) səbəb ola bilir.[28] Daha ağır hallarda evə zorla həbsedilmələr, psixiatrik müəssisəyə yerləşdirmələr, ölümlə real hədələr müvafiq olaraq ayrı-ayrı cinayət əməlləridir (CM.145,146, 134)

Həmçinin, baxmayaraq ki, Gender bərabərliyi haqda qanun bütün anlayış və məqsədlərində genderi yalnız kişi və qadın bölgüsü ilə aparır, oriyentasiya və kimlik məsələlərini ayırd, şamil və tənzim etmir, lakin 2.0.5-ci maddədə seksual qısnamaya anlayış verəndə seksual yönüm sözünü cins sözündən ayrı, müstəqil anlayış kimi daxil edir: "...əmək və ya xidmət münasibətlərində olan şəxsi alçaldan və təhqir edən, başqa cinsə və ya seksual yönümə mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranış".

Beləliklə, Konvensiyanın 3-cü, 8-ci maddələri ilə birlikdə 14-cü maddəsi, ölkə qanunvericiliyinin isə ən azı inzibati xəta səviyyəsində döymə, xuliqanlıq, cinayət olaraq isə bərabərlik hüququnu pozma (CM.154), mütəmadi əzab hallarında isə işgəncəni nəzərdə tutan maddələr cinayət-hüquq mübarizəsi üçün əsas imkan verən real tətbiq edilə biləcək, lakin praktikada LGBT fərdlərinə qarşı işlərdə işlənməyən maddələrdir.

Ümumiyyətlə, həssas qrupun qanunda əlavə təminatlarla, onlara qarşı stereotipik yanaşma, nifrət motivi ucbatından törədilmiş hallarda təqsir-

karlara ağırlaşdırıcı normalar tətbiq etmək hələ bu işin özünün minimumlarındandır. Cəza ilə islahedilmə arasında bəzən lazımi effekt alınmır, amma cəzanın labüdlüyü hər halda cəzasızlıq və yüngül cəzayla qurtulmaq arxayınlığından təcavüzçülük halının azalması məsələsində daha effektiv ola bilir. Əks halda, bu bərabərsizliklə mübarizədə cinayət-hüquqi təminatlar aşağı, az işə yarayan, bir növ daha da vecsiz mövqedə qalmış olar. Çünki substantiv olaraq (məğz-əsasında) burda fərqli, ağır məsələ, həyəcan təbili çalmağa vadar edən, mahiyyətinə görə qeyri-insani bir element var: sistemli geridəqalmışlıqdan, ümum qəbul edilmiş ümumbəşəri dəyərlərə zidd, müasir elmi nəticələrinə zidd gedən və məntiqi-ağlabatan mühakiməyə uymayan köhnəlmiş və damğalayıcı (stereotipik və stiqmatik) baxışlardan irəli gələn, parazitar sirayətedici effekti olan homofobik nifrət cinayətinin **ictimai təhlükəlilik əmsalı çox yüksəkdir. Çox da uzağa getmədən, oxşar dini-milli tarixi yolu keçmiş ölkələrdə (Türkiyə, Pakistan, Rusiya (Çeçenistan Federal subyektində xüsusilə), İran və s.) baş vermiş irili-xırdalı faciələrdən çıxarılası ibrətlik dərs odur ki, bu, qarşısı alınmazsa, əvvəl tək-tək hərəsi bir yerdə olmaqla intiharlara qədər, ordan da toplu qətliamlara, linçlərə qədər gedəcək, özü də bəzən həndəsi silsilə üzrə, sıçrayışla baş verə biləcək çox kataklitik, alarminq (həyəcan təbili çalınası), kritik elementdir.** Əslində isə, elə indiyə qədər baş vermiş intiharları adi statistikada bir yerə yığdıqca, kiçik qətliam statistikası yaranır. Yeri gəlmişkən, burda "kiçik" sözü və say ilə yanaşma yazmağımızda məqsəd heç də fərdi qurbanların itkisinin əhəmiyyətini azaltmaq deyil. Hamının və hər kəsin birgə dinc yanaşı yaşaya biləcəyi halda otaq künclərinə, dörd divarlara, zəncirlərə, zorla cərrah masalarına, zorla cinsi istək duymadığı şəxslə yataqlara, toy masalarına sıxışdırılması, stereotiplərə təhkim edilməsi, intihara sövq edilərcəsinə təcrid və həlak edilməsi insanlıq adına bir faciə olub, hər nifrətçilik ucbatından inthiar etdirilən, öldürülən, öldürtdürülən fərd, LGBTİ fərdi cəmiyyətdən, insanlıqdan itirilmişdir.

Bu kontekstdə ayrı-ayrı qanunlar, qərarlar, maddələrlə yanaşı, ondan da mühitin cinsi tərbiyə üzrə "düşüncə gigiyenası" həyata keçirməlidir. Bu, çox eşidilmiş həqiqət kimi maraqsız və hətta bu hesabatda lüzumsuz əlavə kimi də görünə bilər. Lakin doktrinal-akademik mənbələrdən, yumşaq hüquq (soft law) qalaqlar arasından bu tələblər məcburi qüvvəli məhkəmə qərarlarına çoxdan oturdulub. Pərakəndə, impulsiv hərəkətlər çoxluğu ilə yox, xalq dilində deyildiyi kimi, "kağız üzərində" ayrı-ayrı normativ dəyişikliklərdən qabaq və ümdə isə sistemli problemi, diskriminasiya cinayətinin kriminoloji ocağının "söndürülməsi" üzrə preventiv ümumi tədbirlər görülməsi dövlətin konkret öhdəliyidir. Ümumi mühitin, patriarxal sistemin dərin kök atmışlığının cinsi zəmində (özü də hələ bu ənənəvi qəbul edilən cinslərin münasibətlərində, qadın cinsinə qarşı) ağır pozuntuların ümumi maqmatik səbəbi olduğunu AİHM özünün landmark işlərindən biri, **Opuz v Türkiyə** işində 2009-cu ildə tanıyıb. Məhkəmə bu işlə Türkiyə dövlətinin misalında bütün 47 ölkəninin hökumətlərini birdəfəlik öhdələndirmiş oldu ki, istintaq orqanlarının işini təkmilləşdirməkdən, onları bərabərlik məsələsində lazımınca agah edən işlər görməkdən, qanunlarını lazımi keyfiyyətdə və real işlək etməkdən əlavə, bunları zəruri olaraq edəndə, təxirəsalınmadan və ilk növbədə real şəkildə kök atmış diskriminativ mühitin özüylə mübarizədə effektiv addımlar, geniş tədbirlər görsünlər. Elə bu dəyişikliklər də bunun bir hissəsi olsun.

Bu işdə xanım Opuz dəfələrlə ərinin zülmkarlığından qaçmış, dövlətə şikayət etmiş, dəfələrlə laqeyd və səmərəsiz istintaqla üzləşmişdi. Ayrılandan sonra da əməllərindən və qadını təqibdən əl çəkməyən zərərçəkmişin bu keçmiş əri nəhayətdə bu cəzasızlıq prezumpsiyasından (mühitindən) cəsarət alıb. Əli-qolunu bağlayan, önünü kəsən effektiv ictimai və legitim dövlət qüvvəsi olmadığı üçün, ümümi cinsi bərabərlik tərbiyəsizliyindən irəli gələn bu susqunluq və laqeydlikdən geninə-boluna istifadə edib, əməllərinin şiddətini artırıb, qızın anasına da, özünə də ölümcül xəsarətlər yetirib, üstünə maşın sürüb, qaynanasını güllələyib, qətl edib. Göründüyü kimi, dövlətin passivliyi fonunda məsələ xüsusi amansızlıqla qətlə qədər irəliləmiş ağır zorakılıqlar zənciri təşkil edirdi. Dövlətin 3 illik bir müddətdə bu qədər şikayətə və epizoda rəğmən səmərə-

siz və laqeyd ola bilməsi məhkəmənin diqqətindən yayınmadı və beynəlxalq hesabatlara istinad edərək bildirdi ki, hadisə ağır və çox da hər yerdə tez-tez baş verməyən bir xüsusi amansızlıq hadisəsi olsa da, onun barəsində iş aparmış yerli hüquq-mühafizə orqanlarının işini qiymətləndirəndə Məhkəmə nəzərə almaya bilməz ki, bu, Türkiyədə qadına qarşı çox yayılmış şiddət cinayətlərindən biri idi, kökləri patriarxal cəmiyyətin dərin oturuşmuş stereotiplərinə gedib çıxır. Ona görə də məsələni bu kontekstindən kənarda, təcrid olunmuş qiymətləndirə bilməz. Nəticədə məsələyə kompleks yanaşma, çoxsayıl hüquqların, işgəncə edilməmək və yaşamaq hüququnun pozulduğunu tanıyan Məhkəmə bundan əlavə, dövlətin pozitiv öhdəliklərini müəyyən edəndə tələb etdi ki, bu öhdəliklər, tədbirlər təkcə o hissədə inkişaf etdirilməli deyil ki, belə cinayətlər **xüsusi səylə (due diligence) hərtərəfli araşdırılmalıdır, təqsirkarların cəzalanması ilə yekunlaşmalıdır. Fəqət**, həm də o hissədə effektivlik artırmalıdır ki, bu kimi çoxsaylı dövlət orqanları da, şəxslər də dərin kök atmış patriarxal cəmiyyətdə qadın hüquqsuzluğuna, qadına qarşı şiddətə haqq qazandıran, qahmar çıxan düşüncənin təsiri altında hərəkət etmişdilər və bu mühitin səngiməsi üçün, hüquqları real, praktik təmin etmək üçün bütün hüquqi və sair tədbirləri görməlidir.

Türkiyənin timsalında, beləliklə, bu qərarla da, bu kimi dərin oturuşmuş gender diskriminasiyasında kəskin əziyyət çəkən cəmiyyətləri olan dövlətlər ümumi – yəni sistemli cinsi ayrı-seçkiliyi, bu zəmində zorakılığı ləğv etməyə qadir sistemli, ardıcıl ümumölkə, ümum-cəmiyyət səviyyəsində tədbirlər görməyə, pozitiv öhdəliklərini genişləndirib yerinə yetirməyə borcludur. Biz də belə ölkələr qismindəyik.

Burdan, eləcə də hesabatlardan və məlumatların müqayisəli təhlilindən yola çıxıb, asanlıqla qənaətə gəlmək olar ki, hüquqiliyi tanınan genderin bu qədər ağır, ənənəvi, çoxəsrlik hüquqsuzluqla üzləşdiyi halda, hüquqi tanınması belə lazımınca olmayan, tənzimlənməyən və xüsusi qorumayan LGBT fərdlərinin **üçüncü cins anlayışını tanımayan bir hüquqi-sosial mühitdə bərabərsizliyi, diskriminasiyası üçün necə bir güclü ilkin "münbit" zəminin labüdən mövcud olduğunu ehtimal, təsəvvür və iddia etmək (prezumptiv) çətin deyil.**

**Müqayisə üçün**, Azərbaycanda Gender bərabərsizliyinin ləğvi barədə BMT Periodik Hesabatında qeydlərini verir, tənqidlər və tövsiyələr alır. Üstəlik dövlətimizin özünün bu barədə eyniadlı xüsusi dövlət Proqramı, Milli Məclisin məlum bəyanatı (207 saylı, 21 Dek. 2006) var. Elə onların varlığı problemin ciddiliy, sistemliliyi və zəruri hərəkətlərin atılmalı olmasının etirafıdır. Elə həmn sənədlərin preambulasında və məzmununda bu barədə geniş müddəalar var. Azərbaycan həmçinin 6.6.2000-ci ildən Qadınlara qarşı bütün növ ayrıseçkiliklərin qadağan olunması haqqında Konvensiyasına (CEDAW)[29] qoşulub, 1.6.2001-ci ildən onun Protokolunu ratifikasiya edib. Bu Protokol üzrə məlum Komitə ölkəyə dair qeydlərində ciddi **sistematik gender bərabərsizliyi və reqressiv gender düşüncəsi, onun ciddi fəsadları, kök atmış gerici sosio-psxiooji mühitin yaratdığı** problemlər geniş tənqid edib (məs: IV rüb,2009)[30], qanunların olduğunu, amma praktikada, gerçəklikdə həqiqi bərabərliyin hələ uzun müddliyinə problematik qaldığını bildirib. Vertikal və horizontal seqreqasiya, gizli diskrimnasiya,insan alveri və məişət zorakılığı qurbanı olmaq risklərinin yüksəkliyi, .erkən nikahlar, qız uşaqlarının abortu... bunlar qanundan yox, daha çox stereotiplərdən irəli gəlir, xüsusən regionlarda güclü olan cəhalətdən (savadsızlıqdan) irəli gəlir. Müşahidələrini yekunlaşdırna Komitə öz 2015 tövsiyələrində[31] dövlətə öz ərazisində bu neqativləri düzəltməyi, bunun üçün onu əsası olan patriarxal yanaşmanın yaratdığı stereotiplərin ləğv olunması üçün tədbirlər görməyi vurğuladı : "....stereotiplər və erkən nikahın artmasına şərait yaradan patriarxal münasibətləri aradan qaldırmaq üçün tədbirlər görülməli, qadın və qız uşaqlarının alverinə qarşı mübarizə səyləri, doğulan uşağın cinsinə nəzarət metodu kimi istifadə olunan abortların tənzimlənməsi üzrə tədbirlər görülməsi, əmək haqqlarında gender əsaslı fərqlərin aradan qaldırılması... təmin edilməlidir.[32]

---

[29]http://www.un.org/womenwatch/daw/cedaw/protocol/

[30]http://www2.ohchr.org/english/bodies/cedaw/docs/co/CEDAW.C.AZE.CO.4.pdf

[31]http://docstore.ohchr.org/SelfServices/FilesHandler.ashx?enc=6QkG1d%2FPPRiCAqhKb7yhsgcjdm0xgERNaIXh22nhTUIZVCx%2B9FrboINsb3vFIY7G-mQ3GMXASQNy1ZyA29oavCrIUhB17CcMAvaBlq%2FaF6SUIrtD9vheONSnEfO2nDcQe

Beləliklə, qadınlarla bağlı vəziyyəti göstərən bu analogiyanı LGBTİ fərdləri barədə ölkədəki mühiti analiz edən hesabatlarla müqayisəli təhlil edəndə yazılı qanunların işləkliyi belə problematik məsələ ikən, heç olmasa həmin hüquqlara iddia edə bilmək, beynəlxalq standartlarda hüquqla təmin olunmaq naminə qanunlara LGBT fərdlərini konkret, effektiv qoruyan müdəalar salmaq olduqca zəruridir.

## Oriyentasiyası ilə bağlı məlumatlar müəyyən edilməyən Elina Hüseynova, 14 yaşlı məktəbli, 2019

14 yaşlı 8-ci sinif şagirdi Elina Hüseynova 4 Aprel 2019-cu ildə, səhər saatlarında dərsarası fasilədə 09:11-də oxuduğu məktəbin 3-cü mərtəbəsindən özünü pəncərədən ataraq intihar edib. Ağır xəsarətlərə rəğmən 2 saat gec çağırılan tibbi heyətlə çatdırıldığı xəstəxanada keçinib. Bu, onun 2-ci intihar cəhdi olub. Məktəb rəhbərliyinin hərəkətlərinin ənənəvi hadisənin ört-basdır edilməsinə yönəlməsi barədə şagirdin yaxınları və məktəbdəki valideynlərin medianı və sosial şəbəkələri xəbərdar etməsindən sonra hadisə bütün ölkəni ayağa qaldırıb. Hadisədən sonra rəfiqəsi, şahidlər və yaxınları məlumat verdilər ki, intiharından əvvəl özünüifadə tərzi, saç rəngi, geyimi ilə bağlı şagird və müəllimləri tərəfindən fiziki və psixi bullinqə məruz qalıb, oğlanlar onu təpikləyib. Mütəmadi fiziki və psixi şiddətə dözməyərək məktəbə gəlmək istəmədiyini dəfələrlə bildirib, valideyni də direktora məlumat verib. Tədbir görülməyib. Beləliklə, son iki həftə xüsusilə narahatverici olsa da, məktəb kollektivi və rəhbərliyi tərəfindən müdafiə olunmayıb, araşdırma və qabaqlayıcı tədbirlər görülməyib. Ələ salmaların, qısnamaların, fiziki təzyiqlərin mərkəzində əsas motiv onun sərbəst həyat və geyim tərzi, həmçinin homoseksual olması barədə iddialar, bunlara uyğun məzmunda da mütəmadi xorgörmə (bullinq) hərəkətləri yer alıb. Ümumiyyətlə, təhqir üçün homoseksuallıq mövzusunun avtomatik material olması özü vəziyyətin göstəricilərindəndir. Dözülməz həddə gələrək özünü öldürməyə cəhd etməsindən dərhal sonra xəsarət alsa da, düşdüyü yerindən tərpədilib. Şahidlərə çəkiliş aparmaq qadağan edilib. Ağır şok vəziyyətdə olsa da, videoya çəkilməklə sorğu-sual edilib, tibbi yardım 2 saat gec çağırılıb, tibbi müəssisədə keçinib. Hadisənin gizlədilməsinə çalışılması şübhəsinə qarşı sosial şəbəkələrdə kampaniya başladılıb. Xüsusi qınağa direktorun daha bir hərəkəti əlavə olunub. Yayılmış səs yazısında direktor təlimatlandırırdı ki, ailənin həyat tərzini sosial ziyanlı, anasının təkrar evliliyini aşağılayıcı fakt kimi təqdim edib, uşağın dözülməz həddə çatmasında valideyn laqeydliyinin əsas səbəb kim tirajlanması təmin edilsin. İnsanlar məktəbin önündə etirazlar təşkil edib və bunlara polis müdaxil edərək məktəbi mühafizəyə alıb. Hadisə ilə bağlı ictimai rezonansdan sonra cinayət işi başlanılıb, direktor vəzifəsindən uzaqlaşdırılıb: 15 aprel 2019-cu ildə Cinayət Məcəlləsinin 143-cü (təhlükədə qoyma) və 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, direktor ev dustaqlığına verilib (16.4.19). Prokurorluğun rəsmi bəyanatında direktorun laqeydliyi və tibbi yardımı gec çağırması birbaşa qeyd olunub. Vəkillər Kollegiyası ailəni vəkillə təmin edib və mütəmadi məlumat paylaşırlar. İstintaq barədə prokurorluq orqanından məlumat hələ ki, xəsisliklə verilir. Bu hadisə cinsi tərbiyə ilə bağlı məktəb proqramının qəbulu, bullinq haqqında qanunun, Uşaq Məcəlləsinin qəbulu barədə müzakirələri tətikləyib. Təhsil Nazirliyi şagirdlərə mənəvi-psixoloji təhlükəsizliz mühiti yaratmaq barədə yerli şöbələrə göstəriş verib. Ölkə rəhbərliyi, ictimai, siyasi xadimlər, məşhurlar hadisəyə reaksiya veriblər. İndiyədək görünməmiş rezonansa səbəb olmuş bu iş məktəblərdə sistem probleminin və cəmiyyətdə cinsi savadlılığın, şəxsi cinsi azadlığa hörmət hüququnun ümumrespublika səviyyəsində çox aşağı olmasını aşkarladı.[33]

Hesabatın giriş hissəsində təqdim edilən əlaqədar

[32]http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/SessionDetails1.aspx?SessionID=901&Lang=en

http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CEDAW%2fC%2fAZE%2fCO%2f5&Lang=en

beynəlxalq sənədlərin hamısında bu zorakı aktların hamısı pislənir, qadağan edilir. İnsan hüquqlarının müdafiəsi üzrə beynəlxalq hüquqi aktlar yekdilliklə, qətiyyətlə və israrla bütün üzv dövlətlərdən tələb edir ki, LGBTİ fərdlərini nifrət əsaslı pozuntulardan qorumaq üçün bütün növ qanunverici, texniki və hüquqi tədbirləri görsünlər. Bu tədbirlərə ilk növbədə qanunla bu cür hərəkətlərin qadağan edilməsi, təqib edilməsi, effektiv istintaq edilməsi, təqsirkarların cəzalanması, zorakılıq qurbanlarının əlçatan, effektiv müdafiə vasitələri ilə təmin edilməsi aiddir. Həmçinin qeyri-insani rəftar olan işgəncə (onun hər üç elementi - işgəncə, qəddar rəftar və insan ləyaqətini alçaldan davranış) mütləq qadağa ilə qadağan edilib. Yəni ki, ondan geri çəkilməyə, istisnaya yol verməyə hər hansı şərtlərdə, hər hansı əsasla yol verilmir və heç bir şəkildə haqq qazandırıla bilinməz. Hökumətlər də motivindən asılı olmayaraq bütün növ işgəncə hərəkətlərinin baş verməməsi üçün, baş verməsinin qarşısını almaq üçün bütün lazımi tədbirləri görməlidirlər. Bunun xüsusi bir tərkib hissəsi də odur ki, dövlətlər eyni qeyri-insani rəftar halları içərisində LGBTİ fərdlərinə qarşı cinsi kimlik və oriyentasiya zəminində nifrətlə törədilmiş olan halların qarşısını almaqla eynilə yükümlüdürlər. Unudulmamalıdır ki, bullinq növləri içərisində də qurbanların təkrar sosiuma, sosial çevrəyə asan və ya çətin bərpa və qəbul olunanları var və burda da ən çətin durum yenə cinsi oriyentasiya zəminində olanların durumudur. Həmçinin ABŞ kimi bu sahədə öncül ölkə özü bullinq əleyhinə qanunu məhz cinsi bullinqə məruz qalan fərdin intiharından sonra yüksələn xalq narazılığı fonunda qəbul etmək iradəsini özündə tapdı.

Mülki və Siyasi hüquqlar üzrə Pakt, İşgəncə və digər qəddar, qeyri-insani və insan ləyaqətini alçaldan davranış və cəzalara qarşı Konvensiya üzrə işləyən praktiklər,[34] həmçinin İnsan Hüquqları üzrə BMT Ali Komissarlığı bildirib ki, Konvensiyalarda nəzərdə tutulan zəruri icraatlar deyiləndə, bura daxildir ki, xüsusilə zorakılıq riski altında olanlar, o cümlədən seksual oriyentasiyası və gender kimliyi səbəbilə hədəfə alınan şəxslər üçün dövlət müdafiə tədbirləri görməlidir.

## LGBTİ fərdi üçün şəxsi həyatın, sağlamlıq, azadlıq və ləyaqətin qorunması baxımdan ədalətli mühakimə və azadlıq hüququ

### A. Transgender qadın. Bakı. 2019

A. ağciyərlərində xəstəliyi olan transgenderdir. Rəfiqələri ilə şəhərin qədim qalası içindəki mərkəzi, tarixi və respektabelli hissəsində restoranda 00:30 radələrində oturubmuş. Yan masaya gələn üç mülki geyimli kişidən biri qayıdıb çöldən özü ilə polis gətirib. Polis söhbət adıyla onu bayıra çağırıb, ordan da bölməyə aparıb, səhər 11-ə qədər saxlayıblar. Gərəksiz suallar verib, hədə-qorxu ilə tələb ediblər ki, tanıdığı digər transların sosial şəbəkə hesablarını, kontaktlarını versin. İmtina edəndə təzyiq ediblər. Fürsətdən istifadə edib rəfiqəsinə məlumat verə bilib və rəfiqəsinin tutduğu vəkil bölməyə gəlib. Bölmə rəisi 1000 AZN tələb edib, amma ağlabatan və qanuni bir səbəb göstərə bilməyib. Əsəbdən xəstəliyi də ağırlaşıb, daha bu mühitə dözə bilməyib, vəkildən xahiş edib ki, rəislə danışıb heç olmasa məbləği yarıya salsın. Rəis razılaşanda 500 manatı rəfiqəsi gətirib. 50 AZN də cərimə yazıblar, bildiriblər ki, əslində sənə 15 sutka həbs düşür, amma biz göndərmirik. Niyəsini soruşanda "sən çox danışma, fikrimizi dəyişməmiş çıx get" dedilər, onlar çıxıb getdi.

## 2017 Böyük Reydi, LGBTİ "ovu"

Bu pozuntuların hamısının sistemli, şiddətli, qrup şəklində, ən ağır formalarda tətbiqi isə əsasən böyük Reyd vaxtı – 2017 sentyabr və onun kiçik təkrarı olan 1 aprel 2019 reydlərində müşahidə olundu.

Əsasən seks işçiləri olan LGBTİ nümayəndələrinə qarşı oxşar reydlər daha kiçik miqyasda və pərakəndə şəkildə mütəmadi baş verirdi. Lakin 2017 reydi bütün parametrlərdə ən ağırı olmuşdu. Zira, çoxsaylı kütləvi

[33] "Məktəbli qızın intiharının dəhşətli təfərrüatı – Oğlanlar təpikləyib, müəllimlər gizlədib", 6.4.19; "Son dörd ildə 10 məktəbli intihar edib – SİYAHI"; "Elina ölməmişdən əvvəl yazmışdı ki, mən sizə lazım deyildim, qəbrimin üstünə gəlməyin", Meydan.Tv;

[34] https://www.migration.gov.az/content/pdf/5acb2446d14f6_%C4%B0%C5%9EG%C6%8FNC%C6%8FL%C6%8FR%C6%8F%20V%C6%8F%20D%C4%B0G%C6%8FR%20Q%C6%8FDDAR,%20QEYR%C4%B0-%C4%B0NSAN%C4%B0,.pdf

işgəncə və digər qeyri-insani rəftar hərəkətləri, saxlanmalar, azadlıqdan əsassız məhrumedilmələr, zorən tibbi yoxlamadan keçirilmə, saç-başın qırxılması, təhqirlər, aşağılamalar, şəxsi məlumatlara zorakı müdaxilə, şantaj və hədə-qorxu ilə qazancların, pulların və digər fərdlər barədə məlumatların toplanması - auntinq, "tələ müştəri" üsulu ilə fərdləri "ovlama", seks işçisi olmayan LGBTİ fərdləri də əhatə edən arbitrar polis təqibi, arbitrar qərarlar, müdafiə hüququnun kobud pozuntuları, əsassız və saxta ittihamlarla, protokollarla rəsmiləşdirilən həbslər, kor-koranə və formal ibtidai araşdırma, belə "araşdırma/istintaqın" nəticələrini olduğu kimi - notarius mütiliyi ilə təsdiqləyən, konveyer üsulu ilə keçirilən, ingilisdilli ədəbiyyatda kenquru məhkəmə adlanan məhkəmə icraatları, onların bir-birinin ucdantutma eynisi olan üzdənköçürmə qərarları – bütün bunların kütləvi forması ilə həmin reydlərlə müşayiət olunmuşdu. DİN rəsimisi səviyyəsində diskriminativ dil işlənərək mentaliltetdən kənar elan olunmuşdular.[35] Müxtəlif rayon polis bölməsinə onlarla LGBTİ fərdi küçələrdən, evlərdən, "tələ zənglərlə" çağırıldıqları yerlərdən tutularaq zorla gətirilib, zorla Dəri Zöhrəvi Dispanserə tibbi müayinəyə aparılıblar. Şəxsi həyatları, əlaqələri, qazancları, dostları, icma barədə aramsız suallara məruz qoyulub, şəxsi əşyalarına, telefonlarına və s. müdaxilə edilib, hədə-qorxu ilə başqa fərdlər barədə məlumatları zorla alıblar. Dindirmələrdə fiziki və psixoloji təhqirlərlə, təzyiqlərlə döyülüb, alçaldılıblar. Həyar tərzi, oriyentasiyası və kimliyini hədəfə alan çoxsaylı ələsalma, xorgörmə dolu ifadələrlə təhqir olunublar, soyundurulub, işgəncə ediliblər. Formal olaraq müxtəlif maddələrlə məhkəmələrdə inzibati həbs və cərimələrə məhkum ediliblər. Reydlərin şiddətindən qaçıb gizlənən, ölkəni tərk edən onlarla LGBTİ fərdi var. Şiddətinə və xarakterinə görə LGBTİ fərdlərə qarşı "ov" adlandırılan bu kütləvi reydin bütün xüsusatları yerli və beynəlxalq təşkilatlar tərəfindən hesabat və məlumatlarda təfərrüatlı təsvir edilib və dövlət buna görə ciddi tənqid olunub. (Bax: Human Rights Watch, Azerbaijan: Anti-Gay Crackdown)[36]

## Aprel 2019 reydi

Bu reyd 2017-ci il reydinin kiçik təkrarı sayıla bilər. Transgender icma üzvlərinin verdiyi məlumata görə, aprelin 1-də onların tanışları olan, əsasən seks işçiliyi ilə məşğul olan transgenderləri və gey fərdləri Bakının bir neçə rayonunda polislər saxlayıb bölmələrə aparıblar. Onlara qarşı ov kimi xarakerizə olunan reydlər zamanı təxminən 15 nəfər tutulub. Trans qadınlar pasport adından fərqli adlarla tanındığı üçün onlardan yalnız 5-nin rəsmi kimliyini müəyyən etmək mümkün olub. Onlardan 2-i İnzibati Xətalar Məcəlləsinin 510-cu (Xırda xuliqanlıq) maddəsi ilə cərimələnib. Digər 3-ü isə İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (Polisin qanuni tələblərinə qəsdən tabe olmama) maddəsi ilə ittiham olunub. Saxlanılanlar bildirib ki, məhkəmə qarşısında vəkillə təmin olunmayıblar, polis qarşılarına qoyduğu sənədləri oxumağa macal vermədən sənədləri imzalatdırıb. İmzalatmağa nail olmaq üçün bəzisinə deyilib ki, imza atarsa, cəriməylə canını qurtara biləcək, buraxılacaq. Lakin aldadılaraq məhkəməyə çıxarılıb və vəkilsiz məhkəmədə inzibati həbslə cəzalanıb. Təxmin edir ki, ona imza etdirilən sənədlər vəkildən imtina barədə imiş. 10 və 15 sutka inzibati həbs veriləndən sonra Binəqədi r. Polis idarəsinin müvəqqəti saxlama təcridxanasına gətirilib. Qeyri-qanuni olaraq onlardan barmaq izi, ağız suyu, qan analizi götürüb, bölmələrdə şəkilləri çəkilib, təcridxanada yanına yaxınları buraxılmayıb. Bölmədə onlardan biri görüb ki, polis əməkdaşları sosial şəbəkələrdə transgenderin profillərini araşdırır. Saxlanılma səbəbi barədə nə özlərinə, nə də ictimaiyyətə məlumat verilməyib. 2017 reydlərinin bu kiçik oxşarı sadəcə əvvəlkindəki ağır işgəncələrsiz olub, qalan bütün hallarda eyni pozuntulardır. İcmanın verdiyi məlumata görə, bəzilərini yaşadıqları evlərdən tutub polisə aparıb, ordan Dəri-Zöhrəvi Dispanserə göndəriblər. 7 nəfəri 40-cı polis bölməsi

---

[35] https://www.hrw.org/news/2017/09/29/familiar-rhetoric-anti-gay-raids-azerbaijan
https://eurasianet.org/azerbaijan-scale-of-lgbt-persecution-is-rising-lawyer
[36] https://www.hrw.org/news/2017/10/03/azerbaijan-anti-gay-crackdown

saxlayıb. Bəziləri "tələ müştəri" üsulu ilə (zəng edib seks xidməti üçün evlərə, hotellərə dəvət olunaraq), orda qandallanıb bölmələrə aparılıblar. Hadisə LGBTİ məzmunlu şəbəkələr tərəfindən ictimailəşdiriləndən sonra beynəlxalq mətbuata çıxıb. Bundan sonra saxlanılanları polis bölmələri özləri apellyasiya məhkəmələrinə yönəldib, onlar məhkəmə zalından azad olunublar. Saxlanılanların sözlərinə görə, onlar öz təşəbbüslərilə vəkil tutmayıblar, apellyasiya şikayəti verməyiblər, apellyasiya məhkəməsində vəkillə təmin olunmayıblar, saxlanıldıqları bölmələrin rəisləri onları məhkəməyə göndərib.

## İdmançıların çimərlik xuliqanlığı 2019

Hesabatın yazıldığı günlərdə isə daha bir insident baş verdi və natamam şəkildə də olsa mətbuatda əksini tapdı. Bakıda çimərlikdə bir dəstə (aralarında dünya çempionu titullu idmançı olmaqla, 20-ə yaxın şəxs öz yoluyla gedən 5 nəfər transgenderə (R.T. (1989 tvl.), C.Q. (19995 tvl.), M.Ə. (1994.tvl) və Ş.L.-ə (1988)) sataşıb, narazılıqla qarşılaşanda da sözlü mübahisəni dərhal fiziki zora çeviriblər. Aktivistlər dəqiqləşdirib ki,[37] hadisə vaxtı hücuma məruz qalan transgenderlərin birinin başında butulka sınıb, qulağı kəsilib, digərinin qabırğalarında xəsarət var, qalanlarının bədənində bir neçə yerdə hematomalar var. Hadisə transfobiya zəminində baş verib. Yaralılar 3 saylı Klinik Tibbi Mərkəzə aparılıb. T.R.-ya döş qəfəsinin sıyrıntısı, sağ bazunun əziyi, Q.C.-ya sol yanağın və hər iki dizin əziyi, Ə.M.-ya boyunun və sağ tərəfli böyrəyin əziyi, L.Ş.-ya isə sol qulağın sıyrılması diaqnozu qoyulub.[38]

Bir qrup şəxs halında silah qismində əşya işlətməklə iki və daha çox şəxsə qəsdən sağlamlığa xəsarət yetirməklə nəticələnən ağır xuliqanlıq cinayəti əlamətləri olan işdir. Göründüyü kimi, əsl motiv – transfobiya tövsifdən kənarda qalır.

[37]https://www.facebook.com/zenenxeylagi/posts/2556987291000951
[38]http://minval.info/bakida-d-nizd-cinsi-azliq-numay-nd-l-rini-doydul-r-t-f-rruat/128472

## Hüquqi çərçivə

Baxmayaraq ki, Daxili İşlər Nazirliyi inzibati həbsləri etiraf edən bəyanatında bildirir ki, onları xırda xuliqanlığa və küçə prostitusiyası ilə məşğul olduqlarına görə saxlayıblar, İnzibati Xətalar Məcəlləsinin 524-cü maddəsi olan bu əməlin əvəzinə, tutulmalar 535-ci maddə (polisə tabe olmama) maddəsi ilə rəsmiləşdirilirdi. Bu və bu kimi maddələri isə yerli hüquqşünaslar praktikada ənənəvi olaraq digər saxta işlərdə müşahidə etdiklərini bildirirlər. Bu saxtalıqlar yerli və beynəlxalq təşkilatlar tərəfindən digər (siyasi) motivlə iddia olunan işlərdə, o cümlədən kütləvi həbslər, saxlanmalar zamanı tətbiq edilən "ittiham buketindən"dir. Bunlar elə maddələrdir ki, onlar polisə insanları asanlıqla saxlamağa və ittiham etməyə manevr imkanı verir, şahidlər də əsasən polislər özləri olur, şəxsin müdafiə-sübut imkanları məhdudlaşır. Üstəlik, şəxsin həqiqətən və qanunən növcud olan haqsız və özbaşına (arbitrar) həbsə qarşı konstitusion müdafiə və etiraz hüququnu cəzalanan əmələ çevirir.[39] Burdan çıxış edərək hesab etmək olar ki, LGBTİ fərdlərinə qarşı kütləvi arbitrar reyddə də bu oturuşmuş yanlış praktika tətbiq edilib. Bu Konstitusion maddələrin pozulması ilə yanaşı, Konvensiyanın 3 (işgəncə), 13 (effektiv müdafiə vasitəsinə malik olmaq), 5 (azadlıq hüququ), 8 (şəxsi həyata müdaxilə), bu üç maddə ilə birlikdə götürülməklə 14-cü (ayrı-seçkiliyə məruz qalmamaq) maddəsinin pozuntusu, 6 (ədalətli mühakimə, müdafiə oluna bilmək imkanı, şəxsən və vəkillə müdafiə hüququ) kimi çoxsaylı hüquqlarının kobud pozuntusunu təşkil edib və bu maddələrlə həmin iş - A və digər 24 ərizəçi Azərbaycana qarşı iş Avropa İnsan Hüquqları Məhkəməsində araşdırılır və Məhkəmə bu maddələr üzrə Hökumətə suallar ünvanlayıb.[40]

Ümumiyyətlə, DİN rəsmisinin də çıxışında istinad etdiyi kimi, Azərbaycanda LGBTİ ilə əlaqəli nəsə xəbər, yazı paylaşılanda insanlar mentaliteti əsas gətirir, onun tərkib hissəsi kimi də milli və dini dəyərləri arqument gətirərək qarşı çıxırlar. Ölkənin

minilliklə şəriətlə idarə olunma tarixi var və islam dininin homo/trans-fobik nifrəti tətikləmək imkanlı bəlli normalarına istinad edilir. Lakin bu şəxslər nəzərə almır ki, bu, müəyyən mənada şəxsin cinsi kimliyinə dini əsasla, dini kontekstdə müdaxilə etmək və konkret həmin dinin qayda-qanunlarına, yaşamına məcbur etmək cəhdidir. Dövlətin resursları hesabına, vəzifə mövqeyindən istifadə edərək, həm də təhsil müəssisəsində hansısa dini baxışlardan bu məsələrə müdaxilə həm qeyri-hüquqidir, ən azındansa etik deyil. Halbuki, Cinayət Məcəlləsinin 167.1-ci maddəsinə görə şəxsi hər hansı dinə (dini cərəyana) etiqad etməyə vadar etmək ayrıca cinayətdir, yetkinlik yaşına çatmayanlara edilməyi ağırlaşdırıcı haldır.

İntihara qədər gəldiyi zaman isə məsələ, CM-in 125-ci maddəsi özünü öldürmə həddinə çatdırmanı kriminallaşdırır. Təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma — 3-7 illik azadlıqdan məhrumetmə ilə cəzalanır. Lakin bu zaman şiddətin mütəmadi olması üçün azı iki zorakı hərəkətin olması tələb olunur, azad fərdlər arasında sair asılılığı sübut etmək çətin olur. Azad fərdlər olub formal olaraq bərabər olsalar da, patriarxal, mizogenik, homo/transofob mentaliteti, ənənələri güclü olan cəmiyyətdə iki şəxsin arasında münasibətlərdə bu, heç də həmişə həqiqi bərabərlik və azadlıq olmur, özünü müdafiə edə bilməyən, təsirdən və ya iqsitadi-sosial asılılıqdan çıxa bilməyən şəxslərin vəziyyəti sair asılılıq (təbii ki, işin fərdi hallarından asılı olaraq) kimi qiymətlənə bilər. Bu baxımdan, bu maddə “sair asılılığı” genişləndirməyincə Elina keysi kimi işlərdə yardımçı olmur.

Buna əlavə, “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasının 8-ci maddəsinə görə 1. hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir. 2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətlərin qarşısını almaq üçün, sağlamlığı yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə dövlət hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir.

Qanunsuz şəxsi həyata və mənzilə müdaxilə yolverilməzdir, o ki qalsın, həbsə almaq. Ona görə də, ilk günlərdəncə irəli sürülən iddia bu oldu ki, gigiyenik-sağlamlıq məsələləri, yoluxusu xəstəliklə bağlı saxlanılıblar. Bu isə elə dövlətin özünün tibbi qurumu tərəfindən rədd edildi. Hətta belə olsaydı da, insanları bu qaydada zorakılığa məruz qoymağa əsas deyildi. 90-cı illərdə müharibəyə adam yığımaq üçün kütləvi  toplamalar olan “oblava”ları, yaxud mütəşəkkil dəstələrə qarşı çoxsaylı polis səfərbər edilmiş xüsusi əməliyyatları xatırladan qəfil “ov” şəklində davranmağa zərurət yox idi. Bu cür qəfil hərəkət vaxtı istənilən müqavimət olsaydı da, irad bildirməyə polisin haqlı deyildi. Həmçinin həmin işlərdə zərərçəkənlərin ifadələrindən, vəkillərin əsaslandığı arqument və sənədlərdən bəlli olur ki, kütləvi sözlü və hərəkətli təhqir, zorakılıq halları, əzabvermə kimi hallar çox olub.

---

[39]https://www.amnesty.org/download/Documents/32000/eur550112011en.pdf

[40]http://bit.ly/ECHR_LGBT_vs_Aze_17184_commnctn

## Son

### Hüquqi çərçivə üçün:

- Yeniyetmələrin, cinsi zəminli problemlərin, ayrı-seçkiliklərin preventiv qarşısını almaq və ictimai tərbiyənin aşağı yaşdan başlamasını real təmin etmək üçün cinsi tərbiyə barədə hərtərəfli, mütərəqqi, qərəzsiz tədris məcburi təhsil proqramının bütün mərhələlərinə daxil edilməlidir;

- Müstəqil bir qanunla içərisində cinsi zəmində bulinq də daxil olmaqla, bütün növ bullinq (xorgörmə, xorgörücü qısnama) hərəkətlərini qadağan edən, bulinq şikayətlərini müstəqil, paritet tərkibli orqana həvalə edən, ayrıca ixtisaslaşmış orqanla təminatlandırılan, asanlaşdırılmış mexanizm tətbiq edən ANTİ-BULLİNQ qanunu qəbul edilməlidir;

- Eyni məqsəd və mexanizmləri özündə birləşdirəcək və inkişaf etdirəcək Uşaq Məcəlləsi qəbul edilməlidir;

- LGBTİ fərdlərinə qarşı ayrı-seçkilikləri xüsusi qadağan edən və buna dair təminatlar müəyyən edən, bütün növ ayrı-seçkiliklərin ləğvi və onun təminatları barədə beynəlxalq hüquqla səsləşən qanun qəbul edilməlidir;

- Cinayət, Mülki, İnzibati və İnzibati Xətalar üzrə Məcəllələr və onların prosessual təminatları olan müvafiq prosessual Məcəllələrdə ayrıca ağırlaşdırıcı hal kimi nifrət cinayətləri və hüquqpozmaları anlayışını daxil etmək,

- Cinayət və daha aşağı məsuliyyət müəyyən edən məcəllələrdə bu növ hüquqpozmalara dair ayrıca maddə işləmək, anlayışları müəyyən etmək, nifrət motivinin cinayətin və digər hüquqpozmanın subyektiv elementinə daxil edilməsini maddələrin dispozisiyasında lazımınca ifadə etmək;

- Dini, etnik və sair ayrı-seçkiliklər zəminində iğtişaşların salınması və sair bu kimi pozuntular barədə hazırki normaların dispozisiyalarına onlardan əlavə, ayrıca və müstəqil şəkildə cinsi oriyentasiya və cinsi kimlik zəminində ayrı-seçkiliklər də əlavə edilməlidir, nifrət əsaslı bu və sair qanunsuz hərəkətləri ciddi cəzalandıran yenilənmiş anlayışlar və cəzalar müəyyən edilməlidir;

### Praktikalar:

-Cinayət və sair təqib zamanı Konstitusiyanın 254 və sair bu kimi maddələrinin tətbiqi üçün əsaslar olsa da, ölü maddələr kimi görülməsindən imtina edilməli, ayrı-seçkiliklə ciddi mübarizə üçün bu kimi maddələrin imkanlarından istifadə edilməsi faydalı olardı

-Nifrət zəminli halların araşdırılması zamanı vəzifəli şəxslərin daha ciddi cəzalanması praktikası formalaşdırılmalıdır

## Əlavələr

Hesabatda bəzi keyslər və istinadlar ingilis dilində qeyd olunub.

Hesabat Azərbaycan LGBTİ icmasından daxil olan LGBTİ hüquq pozuntularının qeydiyyatı əsasında hazırlanıb.

Bizimlə əlaqə

Telefon: +49 176 57808306

E-poçt: nefeslgbt.az@gmail.com

nefeslgbt.org

Bizi sosial şəbəkələrdə izlə:

Nefes LGBT Azerbaijan Alliance

@LGBT_Azerbaycan

@nefeslgbt